www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 noyabr 2015-ci il Çərşənbə axşamı № 255 (6283) Qiymәti 40 qəpik

Xəbər

**Milli Dirçəlişin 27-ci ili...**

yazısı səh.5-də

## Gündəm

**Elmar Hüseynovun qatili tutuldumu...**



Eynulla Fətullayev 5 il öncə Akif Çovdarov barəsində nələr deyib; qandallanan generalın apelyasiya şikayəti təmin edilmədi...

yazısı səh.3-də

**Manat ilin sonuna qədər dəyərini saxlaya bilməyəcək...**

yazısı səh.6-da

**Ermənistan Strasburq zərbəsindən özünə gələ bilmir**

yazısı səh.13-də

*Orxan Pənahlı:*

**"Bu gün Nemət Pənahlının özü də, ailəsi də tək qalıb"**

yazısı səh.12-də

**Sabiq maliyyə nazirinin fransızlardan üzr istəməsi birmənalı qarşılanmadı**

yazısı səh.7-də

**G-20-lərin işsizliklə bağlı narahatlığı - politoloqdan buna dair şok açıqlamalar**

yazısı səh.6-da

**MTN Qobustanda qədim qəbiristanlıqdakı vandalizmi araşdırmağa başladı**

yazısı səh.10-da

*Olland:*

**"Fransa İŞİD-in barbarlarına qarşı acımasız olacaq"**

yazısı səh.11-də

**Kommunal sahələr qış rejiminə keçdi, amma...**

yazısı səh.15-də

**"Terror" fransız sözü imiş...**

yazısı səh.11-də

**Bakıda qadına qarşı 240 min dollarlıq dələduzluq edilib**

yazısı səh.14-də

**Bakı polisi axtarışda olan iki nəfəri tutdu**

yazısı səh.14-də

## Vergilər nazirinin də işdən çıxarılması xəbəri yayıldı

# FAZİL MƏMMƏDOV KABİNETİNDƏDİR, AMMA...

Fazil Məmmədovun nazir postunu 15 il saxlamasının ən böyük sirri onun adının heç vaxt " dövlət çevrilişi", "siyasi və maliyyə xəyanəti", eləcə də "müxalifətlə əlaqə" kimi məsələlərdə hallanmamasıdır; prezidentin son qətiyyəti addımlarının təhlili göstərir ki, indi təkcə vergilər nazirinin deyil, bir neçə nazirlik rəhbərinin, eləcə də komitə sədrinin "kabinetində olması" vəzifələrində rahat oturması demək deyil...



yazısı səh.8-də

## Azərbaycanda internet fəlakəti - qəza, yoxsa sabotaj?

"Delta Telecom"da baş verən yanğın ölkənin internet və informasiya resurslarını iflic etdi

yazısı səh.2-də



*İsgəndər Həmidov:*

**"Həbs edilməli generallar çoxdur..."**

yazısı səh.7-də



*Hacı İlqar:*

**"Paris terroru nəticədir"**

yazısı səh.4-də



**Azərbaycanın birinci ledisi "Yeni Müsavat"a açıqlama verdi**

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 255 (6283) 17 noyabr 2015

# Prezident din xadimlərini və dini icma rəhbərlərini təltif etdi



**Noyabrın 16-da dövlət başçısı İlham Əliyev sərəncam imzalayaraq din xadimlərini və dini icma rəhbərlərini "Azərbaycan Respublikası prezidentinin fəxri diplomu" ilə təltif edib.**

Beynəlxalq tolerantlıq günü münasibətilə imzalanan sərəncama əsasən, "Azərbaycan Respublikası prezidentinin fəxri diplomu" Allahşükür Hümmət oğlu Paşazadəyə, Aleksandr Gennadyeviç İşeinə, Vladimir Feketeyə, Milix İlxananoviç Yevdayevə, Gennadi Konstantinoviç Zelmanoviçə, Robert Baqratoviç Mobiliyə verilib. Təltif həmin şəxslərin Azərbaycanda multikultural ənənələrin və dinlərarası münasibətlərin inkişafındakı xidmətləri ilə əsaslandırılıb.



# Ərdoğan və Putin ikitərəfli sammitin keçirilməsi barədə razılığa gəlib

**"Report" "RİA Novosti"yə istinadən xəbər verir ki, bu barədə iki ölkənin prezidenti Vladimir Putin və Rəcəb Tayyib Ərdoğanın Antalyada G20 liderlərinin sammiti çərçivəsində keçirdikləri ikitərəfli görüş zamanı razılıq əldə olunub.**

İki ölkə liderinin görüşü Bələk qəsəbəsindəki "Reqnum" hotelində bağlı qapılar arxasında baş tutub və təqribən bir saat davam edib. Görüşdə həmçinin Rusiya tərəfdən xarici işlər naziri Sergey Lavrov, Türkiyə tərəfdən isə xarici işlər naziri Feridun Sinirlioğlu, energetika naziri Əli Rza Alaboyun və Türkiyə Kəşfiyyat İdarəsinin rəhbəri Hakan Fidan iştirak edib.

# Vaşinqtonda həyəcan: silah səsləri eşidilib

**ABŞ-ın paytaxtı Vaşinqtonda silah səsləri eşidilib. Axar.az xəbər verir ki, təhlükəsizlik qüvvələri dərhal əməliyyata başlayıb, bir nəfər şübhəlinin olduğu təsbit edilib. Ölən və yaralananlarla bağlı məlumat yoxdur.**


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, **Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# Azərbaycanda internet fəlakəti - qəza, yoxsa sabotaj?

## "Delta Telecom"da baş verən yanğın ölkənin internet və informasiya resurslarını iflic etdi

**Noyabrın 16-da saat 16 radələrində Azərbaycanda internet rabitəsi tamam kəsildi. Təxminən yarım saat sonra isə məhdud bir şəkildə bərpa edildi. Axşama qədər bir neçə dəfə kəsintilər baş verdi.**

Bu səbəbdən elektron media kateqoriyasına daxil olan yüzlərlə saytın onlayn qaydada işi iflic olub. Bundan başqa, ölkələrarası yazışmalar aparmaq mümkün olmayıb, yüz minlərlə insanın internet üzərindən qurduqları ünsiyyət məhdudlaşıb.

İlkin xəbərə görə, internetin kəsilməsinə səbəb Azərbaycana internet verən "DELTA Telecom"un datacenter-ində baş verən yanğındır. Server otağında olan yanğına görə bu problem yaranıb. Bu barədə hadisə yerində olan yanğınsöndürənlər məlumat verib.

**Multimedia Mərkəzinin rəhbəri Osman Gündüz "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, baş vermiş problemə səbəb "DELTA Telecom"da baş verən hadisədir:** "Azərbaycanın əsas internet təchizatçısı "DELTA Telecom"dur. Orada baş verən yanğın nəticəsində texniki problemlər yaranıb. Azərbaycanda "Backboun" provayder də fəaliyyət göstərir. "Azertelecom", "Azercell", "Nar" və "Bakcell" operatorları bu provayder vasitəsilə çalışır. "DELTA Telecom"da əlavə təhlükəsizlik tədbirlərinin də görülməsi də vacibdir".

**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin mətbuat xidmətinin rəhbəri Müşfiq Əmirov da sosial şəbəkələrdə yayılan və ekspertlər tərəfindən səsləndirilən açıqlamanı təsdiqlədi. Bildirdi ki, "Delta Telecom"un kabel xətlərində yanğın baş verib və hadisə yerinə dərhal FHN əməkdaşları gəliblər:** "Yanğın söndürülüb. Mütəxəssislər hazırda ordadır, interneti bərpa edirlər. Amma alternativ internet də "Azertelecom"dan verilib".

İnternetin olmaması bank sisteminin də işini iflic edib. Ödənişlərini etmək üçün banka yollanan vətəndaşlara internet olmadığı üçün bu əməliyyatların da mümkünsüz olacağı bildirilib.

Rabitə və yüksək texnologiyalar naziri əvəzi İltimas Məmmədov "Delta Telecom"a gedib və ölkəni internetsiz qoyan qəzanın səbəblərini araşdırıb. Bu barədə virtualaz.org saytına nazirlikdən məlumat verilib. Digər məlumata görə, hüquq-mühafizə orqanlarının əməkdaşlarından ibarət xüsusi qrup da "Delta Telecom" şirkətinə gedib. Onlar yanğının səbəblərini araşdırmaqla məşğuldur.

Rabitə Nazirliyindəki mənbələr isə artıq ilkin versiyanın olduğunu bildiriblər. Mənbənin sözlərinə görə, dünən səhər nazirlikdə keçirilən iclasda sistemin gücünü artırmaq üçün mütəxəssislərin provayder şirkətinin avadanlıqlarının modernləşdirilməsinə başlayacağı qeyd olunub.

Məlumata görə, bu işlər axşama qədər yekunlaşmalı idi. Belə güman edilir ki, yanğın da xətlərin Yasamal rayonu ərazisindən keçən hissəsində iş görülərkən baş verib.

"İnternet kəsintisi Delta Telekom şirkətinin kabellərində baş vermiş tüstüləmə ilə əlaqədar olub".

**Bunu "Delta Telekom"un daxili xidmət rəhbəri Anar Güləmmədov ölkə.az-a açıqlamasında bildirib:** "İnternet verilməsi ilə əlaqədar problem qısmən aradan qaldırılıb və qısa müddət ərzində internetin verilməsi tam bərpa olunacaq. Bəzi mətbu orqanların yazdığı kimi, "Delta Telekom"da yanğın və partlayış hadisəsi baş verməyib".

Onu da qeyd edək ki, bütün ölkə boyunca yaşanan internet fəlakətini sosial şəbəkələrdə sabiq rabitə naziri Əli Abbasovun sabotajı kimi qiymətləndirənlər də var.

Bəzi ekspertlərsə hesab edir ki, baş verən internet fəlakəti Azərbaycana qarşı xaricdən olan təxribatdır. Lakin bu cür versiyaları rəsmi şəkildə təsdiq edən heç bir mənbə olmadı.

Qəzet çapa gedəndə, Azərbaycandakı misli görünməyən internet fəlakəti davam edirdi.

❑ **Sevinc TELMANQIZI**



# Azərbaycan hərbi gücünə görə dünyada 64-cü yerdədir

**"Global Firepower" hərbi gücünə görə dünya ölkələrinin növbəti reytinq siyahısını açıqlayıb. "Report" xəbər verir ki, bu barədə təşkilatın saytında bildirilib. Azərbaycan 126 dövlət arasında 64-cü yerdədir. Ölkəmizin hərbi büdcəsi 3 milyard dollardan artıqdır. Türkiyə bu siyahıda 10-cu, Ermənistan 74-cü, Gürcüstan 75-ci yerdədir. İlk üç yeri isə ABŞ, Rusiya və Çin tutur.**

Qeyd edək ki, reytinqin müəyyənləşdirilməsində 50-dən çox amil, o cümlədən hərbi texnikanın sayı, insan resursları, müdafiə xərcləri, infrastruktur miqyası nəzərə alınır.

# Paris hücumları: 23 nəfər həbs edilib



**Cümə günü baş vermiş hücumlara görə şübhəli bilinən islamçı silahlılar üzərində ölkə boyu həyata keçirilən reydlər nəticəsində 23 nəfər həbs edilib və silahlar ələ keçirilib.**

Belçika paytaxtı Brüsseldə də polisin reydlər keçirdiyi və bir nəfərin həbs edildiyi bildirilir.

Parisdəki konsert salonu, stadion, restoran və barlarda həyata keçirilmiş hücumlar nəticəsində 129 nəfər həyatını itirib.

İslamçı silahlılar tərəfindən Parisdə həyata keçirilmiş cümə hücumları Suriyadan planlaşdırılıb və həyata keçirilib, Fransa baş naziri Manuel Valls deyib.

Onun təbirincə, rəsmilər hesab edir ki, Fransa və digər Avropa ölkələrində yeni terror hücumları planlaşdırılmaqdadır. Baş nazir silahlılar olduqları güman edilənlərə qarşı Fransada bazar ertəsi səhər 150 reyd keçirildiyini bildirib.

Cümə günü baş verən hücumu həyata keçirmiş islamçı qrupun sağ qalmış üzvləri və ortaqlarına qarşı genişmiqyaslı axtarış-əməliyyat hərəkətləri davam etdirilir.

Parisə hücumda şübhəli bilinənlər:

Salah Abdeslam, 26 yaş - təcili polis tərəfindən axtarılır.

Mohammed Abdeslam - Belçikada həbs edildiyi xəbər verilir.

Brahim Abdeslam, 31 yaş - Bataclan konsert zalının yaxınlığında həlak olan hücumçu kimi adı açıqlanıb.

Paris yaxınlığından olan Ismail Omar Mostefai, 29 yaş - Bataclanda hücumda dünyasını dəyişib.

Bilal Hadfi, 20 yaş - Stade de France-da həlak olan hücumçu kimi adı açıqlanıb.

Dörd digər hücumçu şəhərə basqın zamanı dünyasını dəyişib.

# "Konstitusiya Məhkəməsindən ədalət..."

## İqbal Ağazadə: "Biz bütün instansiyalar üzrə müraciətlərimizi davam etdirmək niyyətindəyik"

**Parlament seçkilərinin nəticələri ilə razılaşmayan Ümid Partiyasının sədri İqbal Ağazadə mübarizəni hüquqi müstəvidə davam etdirir. Artıq Apelyasiya Məhkəməsindən də ədalətli qərar görməyən İ.Ağazadə Konstitusiya Məhkəməsindən cavab gözləyir. Problemin hüquqi müstəvidə davam etdiriləcəyini bildirən Ümid sədri Avropa Məhkəməsinə qədər gedəcəyini də diqqətə çatdırıb.**

İ.Ağazadə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Konstitusiya Məhkəməsindən də ədalətli qərar gözləmir: "Elə bir ciddi gözləntim yoxdur. Çünki Apelyasiya Məhkəməsi ümumiyyətlə iddiamı, ziddiyyətləri araşdırmadı. Ziddiyyət ortada idi. Mənim əlimdə rəsmi protokollar var, o protokolların nəticəsinə görə qalibəm. MSK isə eyni protokollarda fərqli rəqəmlərlə başqasını qalib elan edib. Apelyasiya Məhkəməsi bu ziddiyyəti aradan qaldırmaq üçün bircə addım atmadı. Halbuki məhkəmənin bilavasitə vəzifəsi ilk növbədə ədaləti bərpa etmək və doğru qərar verməkdir. Ona görə də hesab edirəm ki, Konstitusiya Məhkəməsi də məsələyə Apelyasiya Məhkəməsindən fərqli baxmayacaq".

Partiya sədri qeyd edib ki, Avropa Məhkəməsinə müraciət aktualdır: "Məsələ partiyada müzakirə ediləcək. Partiyanın qərarı nə olacaqsa, onu yerinə yetirəcəyik. Şəxsi fikrim budur ki, biz bütün instansiyalar üzrə müraciətlərimizi davam etdirmək niyyətindəyik".

Qeyd edək ki, bir neçə gün əvvəl Mərkəzi Seçki Komissiyası Ümid Partiyası tərəfindən 35 saylı üçüncü seçki dairəsindən namizədliyi irəli sürülmüş İqbal Ağazadə ilə bağlı müraciəti araşdırıb. MSK qərar verib ki, bu şikayət əsasında aparılan araşdırmalar dayandırılsın.

İ.Ağazadə isə dairəsinə daxil olan seçki məntəqələrində baş verən qanun pozuntuları və saxtakarlıqla bağlı hətta həm rəsmi saytı, həm də twitter səhifəsi vasitəsilə dövlət başçısı İlham Əliyevə müraciət edib.

❑ **Röya RƏFİYEVA**


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 255 (6283) 17 noyabr 2015



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Elmar Hüseynovun qatili tutuldu?

## Eynulla Fətullayev 5 il öncə Akif Çovdarov barəsində nələr deyib...

**Xəbər verdiyimiz kimi, MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov noyabrın 15-də həbs edilib. Haqqın.az saytının baş redaktoru Eynulla Fətullayev bundan sonra facebook statusunda "jurnalist Elmar Hüseynovun qatili qandallandı. Allaha inanmayan varmı?" yazıb.**

"Yeni Müsavat" qəzeti isə "Monitor" jurnalının mərhum baş redaktoru Elmar Hüseynovun qətli ilə bağlı E.Fətullayevin illər öncə səsləndirdiyi fikirləri yada salır.

**2010-cu il iyunun 16-da keçirilən məhkəməsi zamanı E.Fətullayev bu olayla bağlı detallı danışmışdı. Arxivə nəzər saldıq. AzadlıqRadiosunun məhkəmədən hazırladığı reportajda bu fraqment dəqiqliklə qeyd olunur. Yada salaq:** "Təqribən 2007-ci ilin əvvəllərində mən Elmar Hüseynovun qətli ilə bağlı məlumatlar əldə etdim. Akif Çovdarov MTN-in idarə rəisinin müavini idi, indi deyəsən, Baş İdarənin rəisidir, məlumat əldə etmişdim ki, bu insanın bu məsələdə iştirakı ola bilər. Daha doğrusu, bir çox şübhələr onun adı ətrafında dolaşırdı. Mən bu istiqamətdə araşdırmalara başladım".

**İyunun 16-da keçirilən məhkəməsində Eynulla Fətullayev deyib ki, həbsinin kökündə Elmar Hüseynovun qətli ilə bağlı apardığı araşdırmalar dayanır. Dedi ki, araşdırmalar zamanı qətlin izləri Milli Təhlükəsizlik Nazirliyinin həmin vaxt idarə rəisinin müavini işləmiş Akif Çovdarovun üstünə aparıb çıxardığından onun bu araşdırmaları aparmasına əngəllər yaradılıb. Ən böyük əngəl isə həbsi olub: "Araşdırmalara başladım və bir aydan sonra həbs olundum. Məni Bayıl həbsxanasından MTN-ə etap elədilər, adını da qoydular ki, guya Bayıl həbsxanasından qaçmaq istəyirəm. Şübhəsiz ki, mən ordan qaçmaq istəmirdim. MTN-in təcridxanasında bu insanlar gəlib mənimlə görüşdülər".**

**Eynulla Fətullayev məhkəməsində demişdi ki, Akif Çovdarov onunla görüşərkən Elmar Hüseynovla bağlı araşdırmalara son qoymasını tələb edib. Hətta aralarındakı mübahisə o yerə çatıb ki, onlar əlbəyaxa olublar:** "Mən dedim axı, apardığım bütün jurnalist təhqiqatları bir şey göstərir, hər şey gəlib sənə çıxır. Avropa Məhkəməsinə göndərdiyim materiallarda faktlar da göstərmişəm. Ancaq mən bir şeyi başa düşmürəm, siz nəyə görə Elmarı belə qeyri-peşəkarcasına qətlə yetirmisiniz?"



Elmar Hüseynov



Eynulla Fətullayev

**Eynulla Fətullayev iddia etmişdi ki, Akif Çovdarov Elmar Hüseynovun qətlində əli olduğunu açıq şəkildə etiraf edib:** "Dedi ki, onu öldürmək azdır, onu yandırmaq lazım idi. Bir də dedi ki, axı biz bunu özümüzə görə etməmişik, atamın sözü ilə etməmişəm ki bunu. Yəni ki, sən məndən nə istəyirsən axı, əl çək məndən. Deyirdi, ağzına gələni yazırdı, axırı belə də olmalı idi".

**Məhbus jurnalist məhkəmədə onu da demişdi ki, Akif Çovdarov ona xüsusi xidmət orqanı ilə əməkdaşlıq etməyi və Elmar Hüseynovun qətli ilə bağlı istintaqa yalan ifadələr verməyi təklif edib. O isə təklifi qəbul etməyib:** "Dedim yaxşı, mən başa düşdüm ki, artıq bu mövzuya toxunmaq olmaz, məni azadlığa buraxın. Dedi, biz səni elə-belə buraxa bilmərik, biz səni "verbovka" eləməliyik. Biz səni "verbovka" eləyirik, sən bizim nazirliyə işləyirsən. Dedim, aha, gəldik çatdıq əsas məsələyə. Mənə dedi ki, sən bizə Elmar Hüseynovun qətli ilə bağlı yalan ifadələr ver. Dedim, mən Elmarın qətli ilə bağlı yalançı ifadələr verə bilmərəm, o mənim dostum, həmkarım olub. Dedi, axı biz sənə azadlığa çıxmağa kömək edəcəyik".

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arioğlu da deyir ki, E.Fətullayev 2007-ci ildə onunla görüşlərindən birində E.Hüseynovun qətlində Akif Çovdarovun əli olduğunu bildirib.**

**"Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev isə "Yeni Müsavat"a açıqlamasında bildirmişdi ki, E.Hüseynovun qətlinin açılması ilə Akif Çovdarovun arasında hər hansı bağlılıq yoxdur. Müsahibimiz xatırladıb ki, 2005-ci ildə, qətldən dərhal sonra Azərbaycana gələn Türkiyə hüquq-mühafizə orqanları araşdırma apararaq bəlli nəticəyə gəlmişdi:** "Həmin vaxt hakimiyyətə bu qətlin icraçıları və təşkilatçılarının adları verilmişdi. Yeni hakimiyyətdə bu qətlin kim tərəfindən yerinə yetirilməsi barədə məlumat var. Hesab etmirəm ki, bugünkü hakimiyyət bu məsələni açmaqda maraqlıdır".

**M.Əliyev xatırladıb ki, ailəsi daha öncə dəfələrlə qətlin açılması ilə bağlı ən yüksək instansiyalara müraciət edib. Onun sözlərinə görə, ailəsinə qətlin icraçıları və sifarişçilərinin tapılacağı ilə bağlı vəd verilsə də, yerinə yetirilmədi:** "Jurnalistlər də bu tələbi dəfələrlə səsləndiriblər. Növbəti çağırışla nəyinsə dəyişəcəyinə inam yoxdur. Qətlin üstünün açılması üçün siyasi situasiya lazımdır. Doğrudur, Çovdarov işdən çıxarılıb. Amma bu qətlin üzə çıxarılması üçün başqa vəziyyət olmalıdır".

❑ **Sevinc TELMANQIZI**




# Akif Çovdarovu ev dustaqlığına buraxmadılar

## Bakı Apelyasiya Məhkəməsi sabiq rəisin 3 aylıq həbsdə qalacağını təsdiqlədi

**MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov Səbayel Rayon Məhkəməsinin barəsində çıxardığı 3 aylıq həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəzlənməsi üçün apelyasiya şikayəti verib.**

Etibarlı mənbədən "Yeni Müsavat"a daxil olan məlumata görə, A.Çovdarovun şikayətinə noyabrın 16-da səhər saatlarında qapalı keçirilən məhkəmə iclasında baxılıb və sabiq rəisin şikayəti təmin olunmayıb. Qaynağımız deyib ki, A.Çovdarov Bakı Apelyasiya Məhkəməsində dustaqlar üçün saxlama yerinə aparılarkən məhkəmə nəzarətçilərindən ona xüsusi münasibət sərgiləmələrini tələb edib. Həddən artıq əsəbi olan və yuxusuz görünən A.Çovdarov general olduğunu xatırladaraq nəzarətçiləri hədələyib. Nəzarətçilər isə sabiq rəisə xatırladıblar ki, onlar üçün dustağın həbsinə qədər hansı vəzifəni daşıması o qədər də əhəmiyyət kəsb etmir. A.Çovdarov əli qandallı halda konvoyun müşayiəti ilə Bakı İstintaq Təcridxanasına qaytarılıb.

A.Çovdarov Cinayət Məcəlləsinin 308.2, 309.1, 302.2-ci və 311-ci maddələri ilə təqsirləndirilib. MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbs edilmiş sabiq əməkdaşları da A.Çovdarovun əleyhinə ifadə veriblər. Bundan əvvəl MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin idarə rəisi Akif Əliyev, şöbə rəisi Orxan Osmanov, həmçinin Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları Natiq Alıyev və Zaur Məmmədov barəsində də həbs-qətimkan tədbiri seçilib.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Terrorçunun dini



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Parisdəki son qan donduran terror aktları sözsüz ki, ən əvvəl müsəlmanlara, İslama zərbədir, nəinki avropalılara. Bunun altını da həmişəki kimi, öncə Avropadakı günahsız, dinc müsəlmanlar çəkəcək. Çünki özünü "cihadçı" elan edən terrorçuların əməllərinə görə inamsızlıq kölgəsi istər-istəməz "din qardaşları" kimi onların da üzərinə düşəcək.**

Amma dəfələrlə deyildiyi kimi, terrorçunun dini-imanı yoxdur. Ən azı ona görə ki, heç bir din, o cümlədən İslam, peyğəmbərlər günahsız insanların, uşaqların və qadınların hər hansı məqsəd uğrunda öldürülməsinə, özü də kütləvi şəkildə öldürülməsinə heç vaxt haqq verməyib.

Peyğəmbər əfəndimizdən (ə) hədis var, buyurub ki, "Savaş zamanı qadınlara və uşaqlara, tarlada işləyənlərə, hətta ağaclara xətər yetirilməsin". Belə olan təqdirdə Parisdəki kimi bəşəriyyət əleyhinə rəzil, vandalist əməllərin səmavi kitablara necə dəxli ola bilər? Müqəddəs Quran-i-Kərimdə konkret ayə var ki, "Bir günahsız insanı öldürmək bəşəriyyəti öldürməyə bərabərdir".

Nə edəsən ki, bu gözəl kitabı, səmavi konstitusiyanı hələ də öz bildiyi kimi təfsir və şərh edib insanlıq əleyhinə cinayətlərinə, yaramazlıqlarına davam edən alçaqlar, onlardan da qorxulu olan "islam ideoloqları" var.

Amma onlar çox da deyilər. 1.2 milyardlıq müsəlman toplumun üst-üstə heç 1 faizini təşkil eləmirlər. Gəl ki, məkrli dairələrin sayəsində - onların arasında arxası Qərbə bağlı olan da var - yaxşı təşkilatlanıb, silahlanıblar və güclü maliyyəyə malikdirlər.

Bu maliyyə hesabına da əksərən kasıb, sosial ədalətin pozulduğu müsəlman ölkələrdəki gəncləri, romantika axtaran və Qurandan bixəbər yeniyetmələri öz çirkin planlarına, öz mənfur ideologiyalarına cəlb edə bilirlər. Problemin kökü ilk növbədə burdadır.

Həmin kök kislota ilə yandırılmayınca, nə "dini zəmində" terror aradan qalxacaq, nə də İŞİD yox olacaq. Yoxsa ki, köhnə qitədə, Avropada məscidləri bağlamaq çıxış yolu deyil, olmayıb, ola bilməz. Ona qalsa, İŞİD-çilərin özləri də vaxtaşırı məscidləri nəinki qapadır, hətta partladır və dinc müsəlmanları qətliama məruz qoyurlar. Ötən ay Ankarada terror nəticəsində öldürülən onlarla müsəlman kimi.

Yəni heç bir halda "islam terroru" anlayışı qəbul oluna, məntiqli sayıla bilməz. Bu, olsa-olsa, bütövlükdə İslam dünyasına qarşı Qərbdəki bəzi dairələrin yeni "səlib yürüşü" aparması üçün düşünülən bəhanə qismində görünür. Beynəlxalq terrorun meydan sulamasının başqa bir nədəni də zatən, buradan qaynaqlanır - nəyin bahasına olur olsun müsəlman Şərqi üzərində xristian aləminin hegemonluğunu qoruyub saxlamaq.

Bu xüsusda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın öncəliklə Qərbə, xristian dünyasına yaxınlarda etdiyi bir çağırışı yeri var ki, yada salaq. Ərdoğan BMT Təhlükəsizlik Şurasında islahatların qaçılmaz olduğunu bildirmiş və vurğulamışdı ki, dünya daha əvvəlki deyil və onun taleyi cəmi 5 daimi üzv-dövlətdən *(ABŞ, Rusiya, Çin, Fransa, İngiltərə)* asılı qala bilməz - hansı 5 dövlət ki, onların arasında 1.2 milyardlıq müsəlman dünyasından bircə dövlət də yoxdur. O zaman qlobal terrorla necə effektli mübarizə aparmaq, dünyada sahman yaratmaq olar görəsən?

Elə ona görə də olmur. Nədən ki, "dinçi-terrorçular" qlobal siyasi düzəndəki bu boşluqdan da məharətlə yararlanır. Çünki 5 qeyri-müsəlman dövlət onlara qarşı hətta ən ədalətli qətnamə də qəbul eləsə, bunu islam dünyasına qarşı diskriminasiya sənədi kimi təqdim edib özlərini müsəlmanların gözündə "haqq tərəfdarı" kimi göstərə bilirlər. Problemin bir kökü də burda gizlənib.

Amma BMT TŞ-də daimi üzvlərin sayı 5 yox, tutaq ki, müsəlman Türkiyə və Pakistan, Almaniya, Yaponiya, Hindistan kimi qüdrətli dövlətlərin hesabına 10-a çatsa, üstəlik, veto hüququ da götürülsə, o zaman qat-qat ədalətli, ən başlıcası isə kağız üzərində qalmayan qətnamələr ortaya çıxar.

Dünya bundan nəinki dağılar, tam əksinə, onun hüzuru artar. Zira, o halda Dağlıq Qarabağ kimi etnik-ərazi münaqişələri də qısa zamanda həllini tapar, İŞİD kimi antibəşəri qruplaşmaların sonu da daha tez gələr.

**İŞİD noyabrın 13-də Parisdə baş verən zəncirvari terroru üzərinə götürdükdən sonra dünyada islamofobiya meylləri güclənməkdədir. DEVAMM sədri Hacı İlqar İbrahimoğlu "Yeni Müsavat"a açıqlamasında terrorun dinlə əlaqələndirilməsinin yaratdığı mənzərəyə aydınlıq gətirib.**



**"Belə təəssürat yaradılır ki, guya İŞİD indi zəncirdən qaçıb. Hər şey adı ilə çağırılmalıdır. İŞİD Corc Buş dövrünün mirasıdır"**

# Hacı İlqar İbrahimoğlu: "Paris terroru Avropanın 11 sentyabrıdır - böyük mərkəzlərin oyunlarıdır"

## DEVAMM sədri Fransadakı qanlı terroru nəticə adlandırdı: "Dünyanın harasında günahsız insanlar qətlə yetirilirsə, bu, birmənalı pislənməli, lənətlənməlidir"

***- Hacı, Paris terrorunu İslam faktoru ilə bağlamaq istəyirlər. Sizcə, bu olayın arxasında nələr, hansı ideolojilər dayanır?***

- Çox ağır və ciddi bir faciədir. Dünyanın harasında günahsız insanlar qətlə yetirilirsə, bu, birmənalı pislənməli, lənətlənməlidir. İstər Parisdə, istər Beyrutda, Ankarada, Bağdadda olsun, fərq eləməz. Terrorun dini, milləti olmur. Məsələnin ikinci tərəfi isə odur ki, bu hadisə nəticədir. Biz nəticələrin ardınca getməli deyilik. Düşünməliyik ki, bu nəticələrə nələr səbəb olub, bu terror necə baş verib? İŞİD terrorundan danışarkən biz bu terror təşkilatının yaranması, inkişaf etdirilməsi, bəslənməsi prosesinə baxmalıyıq. Belə təəssürat yaradılır ki, guya İŞİD indi zəncirdən qaçıb. Hər şey adı ilə çağırılmalıdır. İŞİD Corc Buş dövrünün mirasıdır. Ciddi təhlilçilər də bunu vurğulayırlar ki, bu gün də İŞİD ABŞ-ın, İsrailin, Qətərin, Səudiyyənin himayəsindədir.

***- Yəni Avropanın, Fransanın hədəf alınmasında sadaladığınız ölkələrin də rolu varmı?***

- İŞİD-dən neft alanlar var, onların mövcudiyyəti üçün imkan yaradanlar var, birbaşa və dolayısı ilə bu qüvvələrə dəstək verənlər var. Bunlar görünən məsələlərdir. Təəssüflər olsun ki, əziz Türkiyəmizin də bu və ya digər formada müəyyən zamana qədər İŞİD-lə bağlı dolayısı ilə olsa da neytral münasibəti ortada idi. Neçə illərdir İŞİD Suriyada terrorla məşğuldur. İctimai rəydə də hər zaman suallar var - Suriyada hakimiyyətə bu terrorçularmı gələcək, Suriyada, İraqda bu terror qrupu üçün yaradılan fürsətlər dünya üçün daha ağrılı məsələlər gətirib çıxarmayacaq ki? Mən düşünürəm ki, İŞİD çağdaş dünyada ciddi bir alət, ciddi bir vasitədir. İstənilən yerdə, istənilən durumda, dünyanın proseslərini yönəltmək üçün bu alətdən "uğurla" istifadə edilir. Ona görə altını cızaraq söyləyirik ki, İŞİD terroru və ən əsası onun yaradan, inkişaf etdirən, var oluşunu təmin edən qüvvələr lənətlənməlidir. Dediyiniz suala gəlincə, bəli, bu gün Parisdə və dünyanın digər yerlərində İŞİD-in törətdiyi bütün terror olaylarda həmin qüvvələr məsuliyyət daşıyır. Bu gün dünyada da, bizdə də nəticəni pisləyirlər, ancaq o terror qrupunu yaradanlar kənarda qalır. Ona görə də Parisdə vəfat edən günahsız insanlar üçün tökülən göz yaşlarının bəziləri timsah göz yaşlarını yada salır. Bu prosesdə miqrantlar məsələsini də gözardı etmək olmaz. Görünən odur ki, dünyada belə bir durum yaranır - ya ABŞ-la olacaqsız, olmayacaqsınızsa, bu cür sürprizlərə də tez-tez rast gələcəksiz. Ona görə də bu məsələlərdə mən konspiroloji yanaşmağa ehtiyac görmürəm. Bayaq dediyim kimi, İŞİD-in yaranmasında, inkişafında Amerika hökumətlərinin çox böyük rolu olub, ona görə də burada hər hansı konspirologiyaya yer yoxdur. Paris terroru Avropanın 11 sentyabrıdır. Böyük təəssüf hissi ilə deyirəm ki, dinc insanlar dünyasını dəyişir. Onlar böyük mərkəzlərin oyunlarının qurbanlarıdır.

**"Görünən odur ki, dünyada belə bir durum yaranır - ya ABŞ-la olacaqsız, olmayacaqsınızsa, bu cür sürprizlərə də tez-tez rast gələcəksiz"**

***- Bunun ardınca nələr gələcək? Hanqtiqtonun nəzəriyyəsində deyildiyi kimi, "sivilizasiyaların savaşı" Suriyaya geniş hərbi müdaxiləyə, İraq və Əfqanıstandakı kimi, açıq işğala səbəb ola bilərmi?***

- Söhbət yalnız Suriyadan getmir. 11 sentyabrdan sonra bir çox qlobal müdaxilələr üçün necə yaşıl işıq yandırıldısa, bu terror da hansısa qlobal hadisələr üçün zəmin yaradacaq. Heç şübhəsiz, bu, islamofobiyanın daha da genişlənməsinə şərait yaradacaq. Hələlik Paris terrorunun təhlükə miqyasını təsəvvür eləmək belə çətindir. Hər halda, bu, özü-özlüyündə çox ağrılı bir prosesdir.

***- İslam dünyasının reaksiyalarını necə dəyərləndirirsiniz? Toplumlar, eləcə də İslam təşkilatları bu gün terrorla bağlı necə bir duruş sərgiləməlidirlər?***

- Çox təəssüf, son illər, xüsusən də Suriya böhranından bu yana pərakəndə düşüb və hansısa sinxron, koordinə olunmuş mövqe, hətta məsləhətləşmələr belə yoxdur. İslam dünyasında böyük bir pərakəndəlik var. Bu, həm ümumilikdə, həm də ayrı-ayrılıqda İslam dünyasına zərərdir. Hansısa bir müsəlman dövləti düşünsə ki, bu prosesdə neytral, müşahidəçi mövqe tuta bilər, ciddi yanlışlığa yol verir. Regionda heç bir müsəlman ölkəsinin qalmaması üçün ciddi çalışmalar var. Misirin, Türkiyənin, İranın, ümumiyyətlə, ayaqda dura biləcək istənilən müsəlman dövlətinin maksimum zəiflədilməsi stratejisi ortadadır. Bunun bariz nümunəsi Türkiyədir. Türkiyəyə bunu zaman-zaman PKK terroru ilə, elə İŞİD-in özü ilə xatırladırlar. Türkiyənin özü bu gün eksperimental poliqona çevrilib. Bu prosesin bütün müsəlman coğrafiyasına keçirilməsi artıq ehtimal yox, gerçəklikdir.



**"Türkiyənin özü bu gün eksperimental poliqona çevrilib"**

***- Bu gün Azərbaycan toplumunda da ciddi qütbləşmə hiss edilir. Bir hissə qeyd-şərtsiz Qərbi dəstəkləyir, hətta oradakı insanların, belə demək mümkünsə, daha keyfiyyətli olmasını iddia edir, digər bir qisim isə bildirir ki, bu, Qərbin İslam dünyasına qarşı etdiklərinin cavabıdır. Sizcə, Azərbaycan bu məsələdə harada durmalıdır?***

- Hər iki yanaşma emosional yanaşmadır. Birmənalı olaraq Amerika, Qərb heyranlığı da, mahiyyətə varmadan qiymətləndirmələr də bu emosional yanaşmanın məhsullarıdır. Necə demək olar ki, terror Avropada baş verirsə, dəyərli insanlar ölür, onlardan Şopenlər, Koperniklər yaranacaqdı, amma bu müsəlman dünyasında baş verirsə, ölənlər sıradan biriləridir. Bu yanaşmanı hadisənin şokunun nəticəsi də adlandırmaq olar. Bütün hallarda bu rasional yanaşma deyil. "Yaxşı oldu", "əcəb oldu", "Qərb müsəlman dünyasında etdiklərinin cavabını alır" kimi yanaşmalar da eyni dərəcədə qüsurlu və ziyanlıdır. Heç zaman unutmaq olmaz ki, terrorun qurbanları dinc insanlar olur. Ona görə də terroru və onun səbəblərini lənətləmək lazımdır. Bu ikisi bir yerdə olmayan yanaşma düzgün qiymətləndirmə sayıla bilməz. Azərbaycanın mövqeyi də bu kontekstdə olmalıdır. Biz ölkə olaraq həm terroru lənətləməli, həm də baş verənlərə nəticə kimi baxmalıyıq. Ən əsası da Azərbaycan bu nəticələrə gətirən avantüralarda iştirak etməməlidir.

**"Biz ölkə olaraq həm terroru lənətləməli, həm də baş verənlərə nəticə kimi baxmalıyıq. Ən əsası da, Azərbaycan bu nəticələrə gətirən avantüralarda iştirak etməməlidir"**

***- Hacı, dünyada gedən bu proses Azərbaycan hökuməti ilə yerli dini cameələrin münasibətinə necə təsir edəcək, sizcə?***

- Bu çox ciddi mövzudur. Düşünürəm ki, bununla bağlı ayrıca bir müzakirəyə ehtiyac var. Ümumiyyətlə götürdükdə isə son dövrlər Milli Təhlükəsizlik Nazirliyinin ətrafında baş verən hadisələr onu göstərir ki, ölkədə birmənalı olaraq təxribatlar baş verib. 2010-cu ildən başlayaraq, heç bir əsas olmadan mötədil düşüncəyə sahib dini cameəyə qarşı Səlib yürüşü başladılmışdı, məscidlər sökülürdü, azana qadağalar qoyulurdu, hicab məsələsi ortaya çıxarılırdı. Maksimum işlər görülürdü ki, dini cameədə bir növ sərtləşmə prosesləri baş versin, bunun ardınca repressiyalara başlansın. Mötədil düşüncəyə sahib cameyə qarşı belə aqressiv münasibət radikal, təkfirçi vəhhabiliyə qarşı mülayimliklə müşayiət olunurdu. Son həftələrdə ortaya bizim illərdir ifadə etdiyimiz narahatlıqları təsdiq edən çoxsaylı məlumatlar çıxıb. 2010-cu ildən bu yana biz dəfələrlə deyirdik ki, burada kimsə dövləti maksimal dərəcədə dini cameənin üzərinə yeridir. Bu məsələdə İsrail və bu kimi rejimlərin də əlinin olması səslənən ittihamlar içərisində idi. İndi bizim dediyimiz kimi, bu qüvvələr arasında birbaşa bağların olması aşkara çıxıb. Bu günə qədər dini cameədən heç bir suçu olmayan, heç bir formada hər hansı qanunsuzluqda əli olmayan insanların həbsi baş verib. Mən bir-bir ad çəkmək istəmirəm. Çoxdurlar. Sadəcə, ən sonlarını deyim, məsələn, Hacı Ceyhun Cəfərov. Bu insan yetərincə mötədil düşüncəli insandır, heç kim onun hansı səbəbdən həbs edildiyini bilmir. Hacı Elşən Mustafaoğlu. O da dini cameədə, bütünlükdə ölkədə tanınmış müsəlman intellektualıdır. Bundan öncəki həbslərdə də - istər Hacı Mövsüm, istər, Hacı Abgül eyni proses baş verib. 2010-cu ildən bu yana hər şey edilirdi ki, dini cameə daha da sərt mövqeyə keçsin ki, sonra onların üzərinə gəlmək üçün səbəb tapılsın. Son bir neçə həftədə də biz gördük ki, ictimaiyyətin fikrini bu həbslərdən yayındırmaq üçün dini cameəyə qarşı yenidən hücum başlandı. Bütün ictimai rəy buna kökləndi ki, ay aman, qoymayın, ölkədə böyük bir dini təhlükə var. Bu durumun seçkidən öncə yetişdirilməsi həm də Qərbə bir mesaj idi ki, hansı seçki, hansı demokratik prosesdən danışırsız? "Ölkədə dini radikallıq artıq və bizsiz ölkəni kontrolda saxlamaq mümkün deyil", mesajı da bunu paralelindədir. Fikir verdinizsə, seçkidən dərhal sonra fikri yayındırma prosesi getdi. Həbslər baş verdi və cəmiyyətdəki etiraz dalğası yatırdıldı. Bu ilk deyil ki... Son 5 ildə dini cameəyə qarşı dəfələrlə belə süni basqılar düzənlənib. Özü də bütün bunlar təkfirçi vəhhabiliyə qarşı çox tolerant münasibət fonunda baş verir. Bu gün ortaya çıxır ki, həmin qüvvələrin Azərbaycana qarşı necə ciddi fəaliyyəti var imiş, onlar ciddi qaynaqlardan dəstək alırmışlar. Mən ilk dəfə media vasitəsilə demək istəyirəm ki, artıq hökumətlə dini cameələr arasında münasibəti daha sağlam müstəvidə tənzimləməyin, ciddi islahatlar aparılmasının zamanı gəlib.

***- Siz nələr təklif edirsiniz?***

(ardı var)

❑ **Aygün MURADXANLI**

**"Mən ilk dəfə media vasitəsilə demək istəyirəm ki, artıq hökumətlə dini cameələr arasında münasibəti daha sağlam müstəvidə tənzimləməyin, ciddi islahatlar aparılmasının zamanı gəlib"**

YENİ MÜSAVAT
N 255 (6283) 17 noyabr 2015

**Bu gün Milli Dirçəliş Günüdür. 27 il öncənin bu günü dövlət müstəqilliyimizə gedən yolda ilk mühüm addım atıldı. Məhz 17 noyabrda ilk dəfə olaraq üçrəngli bayrağımız Azadlıq meydanında dalğalandı. 18 gün fasiləsiz davam edən mitinq üç il sonra qazanılacaq müstəqilliyimizin təməli oldu...**



# Milli Dirçəlişin 27-ci ili...

## 1988-ci ilin bu günü üç il sonra qazanılacaq müstəqilliyimizin bünövrəsidir; 14 il bayram kimi qeyd olunan 17 noyabr 9 ildir qeyri-iş günləri sırasından çıxarılıb

Milli Dirçəliş Gününün memarlarından olan Azərbaycanın sabiq prezidenti Əbülfəz Elçibəy 17 noyabrın Milli Dirçəliş Günü kimi qeyd olunması və rəsmi dövlət bayramları sırasına daxil edilməsi barədə 1992-ci ildə fərman verdi. 2006-cı ilə qədər 17 noyabr qeyri-iş günü kimi dövlət səviyyəsində bayram kimi qeyd olundu. Təəssüflər olsun ki, son 9 ildə bu bayram qeyri-iş günləri sırasından çıxarılıb, yəni bayram kimi qeyd olunmur.

Qeyd edək ki, bu günün tarixdə yalançı və həqiqi qəhrəmanlar kimi bir sıra tanınmış simaları var.

Meydan hərəkatının həqiqi qəhrəmanlarından biri sabiq baş nazir, **AXP sədri Pənah Hüseyndir.** O, qısaca olaraq, 27 il öncənin bu gününə belə şərh verdi: "Həmin gün həyatımda, yaddaşımda sevincli, coşqulu, həvəsli və böyük planlar, arzular, xəyallar içində olduğu bir gün kimi qalıb. Bu gün o zamankı arzu, xəyal, həvəs artıq yoxdur. Amma əsası müstəqil dövlətimiz qalır. Bütün xalqımızı, millətimizi müstəqillik günü münasibətilə təbrik edirəm".

**17 noyabrın daha bir memarı var. Bu, 1988-ci ildə yalnız şair kimi, indi isə həm şair, həm də VHP sədri kimi tanınan Sabir Rüstəmxanlıdır. Sabir bəy həmin şərəfli tarixi günü belə xatırlayır:** "Sonda hərəkatda çox isimlər, adlar olub. Təşkilatlanma gedib və Xalq Cəbhəsi yaranıb. Bunların hamısı hər kəsə aydındır. Hər kəsin də öz mövqeyi və xidmətləri var. Amma konkret olaraq, 17 oktyabrdan başlayan hadisənin iki aparıcısı var idi. Şair Sabir Rüstəmxanlı və fəhlə Nemət Pənahlı. Bu, konkretdir. Bunun üstündən nə qədər sağa-sola çəkirlərsə çəksinlər, adımı unutdurmağa çalışırlarsa çalışsınlar, Nemətə qarşı hansısa mövqe sərgiləyirlərsə sərgiləsinlər. Bir milyon insanın olduğu meydanın məsuliyyəti bizim üzərimizdə idi. Bəzən axşama qədər danışan yalnız biz olmuşuq. Meydanın dağılması göstərişini də biz verdik. Hərçənd ki, meydan dağılmadı, insanlar təzədən qayıtdılar. Əgər meydan idarə olunmasaydı, 20 Yanvar faciəsi həmin meydanda baş verəcəkdi. Həmin dövrdə təşkilatlanmış ciddi bir proses gedirdi. Bu meydan hərəkatını xalqımızın tarixinin bir parlaq səhifəsi hesab edirəm. Həmin dövrün lentlərinə baxıram. Hərçənd ki, çoxu əldə deyil. İndi kimsə o dövrlə bağlı film çəkir, klip hazırlayır, əsər yazır, öz zövqünə uyğun kimi istəyirsə, kəsib atır. Amma millətin yaddaşı hələ də kəsilib atılmayıb. Meydan hərəkatı hər kəsin gözünün qabağındadır, hər kəs həmin günləri əvvəldən axıra qədər xatırlayır. O meydan əslinə qalsa, o vaxt dediyim kimi, bir universitet idi. Hərəkat Qarabağda baş verən proseslər, Topxana meşəsinin qırılması, orada Alüminium zavodunun tikilməsi söhbəti ilə bağlı başlamışdı. Əslinə qalsa, hərəkat Moskva hökumətinin bizə qarşı olan xəyanətkar mövqeyinə görə olmuşdu. 1988-ci ilin əvvəllərindən başlayaraq, mitinqlər keçirilirdi. Biz inanmırdıq ki, ilin sonunda bu qədər insan bir araya gələ bilər. Hərəkat getdikcə böyüdü. Köhnə lentlərə, kliplərə baxanda içimi o zamankı qürur hissi doldurur. Öz millətimin böyüklüyünə bir daha heyrətlənirəm. Namuslu ziyalılarımızın cəsarətinə heyran qalıram. Tribunada böyük isimlər görürəm. Orada Bəxtiyar Vahabzadəni, Ziya Bünyadovu, Sirus Təbrizlini, Xəlil Rza Ulutürkü, Əbülfəz Elçibəyi, Qabili və digər şəxsləri görürəm. Hətta dövlət rəsmiləri də məcbur olub xalqın qarşısında çıxış edirdilər. Orada mən Aydın Məmmədovu, rəhmətlik Nüsrət Kəsəmənlini də görürəm. Ayrı-ayrı bölgələrdən mitinqə gələnlər var idi. Orada Güneyin səsi, türk dünyasının bütövlüyü, Azərbaycanın məruz qaldığı haqsızlıqlara üsyan var. Millətin unudulmuş bayrağı həmin dövrdə meydana çıxarıldı. Ora bir tarix universitetidir. Millət öz keçmişini bir daha gözdən keçirir. Millət o hərəkatda böyük bir dərs keçdi. O universitetin indi tələbələri var. Hər halda, biz o universitetin idarəedicilərı, kobud şəkildə olsa da, dərs keçənləri idik".



**Pənah Hüseyn:** "O zamankı arzu, xəyal, həvəs artıq yoxdur"



**Sabir Rüstəmxanlı:** "Hərəkatın iki aparıcısı var idi, şair Sabir Rüstəmxanlı və fəhlə Nemət Pənahlı..."

**S.Rüstəmxanlı Azadlıq meydanını nəhəng bir kürsüyə bənzətdi:** "Meydanın özü nəhəng bir kürsü idi. Orada xalq dünyaya öz sözünü deyirdi. Mənə elə gəlir ki, həyatım meydana gələn bir yol idi. Həmin gün çox xoşbəxt idik ki, xalqımız bir araya gəlir. Sonrakı faciələri təbii ki gözləmirdik. Biz bilməzdik ki, Moskva əhalisinin bir hissəsi olan bizə qarşı qoşun yerində, qəddar davrana, qırğın törədə, ərazimizin bir hissəsini qonşu ölkəyə verə bilər. Biz cəsarətlə kəfənimizi boğazımıza geyinib, meydana çıxmışdıq. O hadisələrin üstündən çox keçib. Bu gün həmin hadisələrdən sonra doğulan, o hadisələri görməyən bir nəsil var. Deyərdim ki, o hadisələri eyvandan izləyib, qorxusundan hərəkata qoşulmayan insanlar da var. Çalışırlar ki, həmin hadisələrin əhəmiyyətini azaltsınlar. SSRİ-nin dağılmasında 1988-ci ildəki meydan hərəkatımız böyük rol oynadı. Bu günkü müstəqilliyimizin qazanılmasında həmin meydan hərəkatının müstəsna xidmətləri var. Bunu heç kəs dana bilməz. İndi deyirlər ki, biz hardayıq, niyə xalqla birlikdə deyilik. Həmin dövrdə ziyalılar xalqla birlikdə meydanda idi. O birliyi pozmaq üçün sonrakı zamanlarda əllərindən gələni etməyə çalışan insanlar oldular. Meydana kölgə salmaq olmaz. Təəssüflər olsun ki, Milli Dirçəliş Günü bayramlarımız sırasında deyil, bayram kimi qeyd olunmur. O gün üçrəngli bayrağımız meydana çıxarılmışdı. İlk dəfə olaraq, məhz o gündə Azərbaycanın SSRİ-nin tərkibindən çıxması tələbləri səsləndi. Əvvəlcə Qarabağ məsələsinə görə etiraz aksiyası idi. Sonra ordu yeridildi. Ordu meydanı əhatəyə aldı. O gündən həmin hərəkat milli azadlıq hərəkatına çevrildi. Bu mübarizənin nəticəsində Azərbaycan müstəqil oldu".

❑ **Cavanşir ABBASLI**



YENİ MÜSAVAT
N 255 (6283) 17 noyabr 2015

# G-20-lərin işsizliklə bağlı narahatlığı - politoloqdan buna dair şok açıqlamalar

## Qabil Hüseynli: "Əhaliyə pul paylamaqla onları hətta xristian dinini qəbul eləməyə belə sövq edirlər"

**Dünyanın nəhənglərinin Türkiyədə keçirilən G-20 sammitində çıxış edən əksər ölkələrin liderləri terrorçuluğun əsas səbəbi kimi işsizliyi göstəriblər. Qeyd edək ki, Azərbaycanda da son vaxtlar işsizliyin artması rəsmən etiraf olunur. Neft bumunun və meqaprojelərin dayanması işsizliyi artıran və əhalinin maddi durumuna mənfi təsir göstərən amillərdir.**

Dünya bazarında neftin qiymətinin aşağı səviyyədə qalmasının bundan sonra da ölkəmizin iqtisadi durumuna təsir göstərəcəyi, işsizliyi bir qədər də artıracağı proqnozları verilməkdədir. Bəs belə bir durumda Azərbaycanda radikal dini qruplara qoşulanların sayının artması gözlənilləndimi? Hökumət bu prosesin getməməsi üçün nə etməlidir?

**Politoloq Qabil Hüseynli** hesab edir ki, həqiqətən də istənilən ölkədə əhalinin maddi rifah halının aşağı düşməsi, işsizlik dini fanatizmin və onun bir forması olan terrorçuluğun yayılmasında ciddi rol oynayır: "Məsələn, mən Türkiyənin təcrübəsini göstərə bilərəm. Türkiyədə kürdlərin yaşadığı bölgələrdə doğum səviyyəsinin yüksək olması səbəbindən ailələrin yaşamında ciddi problemlər olurdu. Ailəsinin maddi rifahını təmin edə bilməyən ailə başçıları uşaqlarını dağlara-PKK-ya göndərirdilər. Türkiyədə terrorun səbəblərindən biri də məhz bu amildir. Eləcə də dünyada da insanlar işsizlik, aclıq yaşayanda radikal dini qruplar, missioner təşkilatlar onlardan öz məqsədləri üçün istifadə etməyi bacarırlar. Onlar bu adamların sosial vəziyyətinə uyğun bir



sosioloji və ya ideoloji tezislər uydurub tapır və guya onları səfalətdən qurtarmağın yolunun cihad, qisas olduğunu təbliğ edirlər. İşsizlikdən, yoxsulluqdan təngə gələn adamların sıralarından isə terror qruplarına qoşulanlar olur. Azərbaycanda da təxminən buna bənzərdir. Azərbaycanda terror qruplarının yaradılması imkanı olmasa da müxtəlif radikal təriqətlərin, xüsusən də vəhhabilik təriqətinin fəaliyyəti bəllidir. Bu cür təriqətləri insanların maddi güzəranının aşağı düşməsindən sui-istifadə edərək genişləndirirlər. İşsizlik, insanların maddi durumunun pisləşməsi bir çox insanları həmin təriqətlərin sırasına qovur. Bu təriqətlərə üzv olanlara müəyyən məbləğdə pul ödənilir. İnsanlar bu cərəyanların sırasına qoşulur və öz keçimini təmin etmək üçün maddi vəsait əldə edir. Bəziləri isə həmin cərəyanlara qoşulduqdan sonra aparılan təbliğat nəticəsində dönüb radikal təmayülün daşıyıcısı olurlar".

**Q.Hüseynli Azərbaycanda vəhhabiliyin yayılmasının çox təhlükəli olmasını qeyd edərək dedi ki, vəhhabiliyin arxasında çox böyük maliyyə imkanlarına malik dövlət dayandığı üçün bu ideologiyanın yayılması üçün fantastik məbləğlərdə pullar sərf edilir. İşsizlik, maddi ehtiyac insanları vəhhabiliyə meyllənməyə məcbur edir:** "Azərbaycanın rayonlarında vəhhabilik açıq surətdə yayılır. Bunu yayanlar əhalinin güzəranının zəifləməsindən maksimum yararlanmağa çalışırlar. Buna qarşı mübarizənin zəif olduğunu qeyd etmək lazımdır. Radikal dini ideologiyalara meyllənmənin səbəblərindən biri məhz bu cür ideologiyaları yayanlara qarşı genişmiqyaslı, sərt tədbirlərin görülməməsidir. Azərbaycanda çoxlu missioner cəmiyyətləri qeydə alınıb. Onlar təkcə vəhhabiliyi yox, xristianlığın müəyyən məzhəblərini də açıq təbliğ edirlər. Rayonlarda qərargahları fəaliyyət göstərir. Əhaliyə pul paylamaqla onları hətta xristian dinini qəbul eləməyə belə sövq edirlər. Nəzərə alsaq ki, son zamanlar neftin dünya bazarında ucuzlaşması, dünyada gedən iqtisadi böhran Azərbaycanda da əhalinin yaşayışına mənfi təsir göstərməkdədir, o zaman düşünmək olar radikal missioner təriqətlərin tilovuna keçənlərin sayında artım ola bilər. Bütün bunlar onu göstərir ki, əhalinin iqtisadi rifahını qaldırmaq əgər ən vacib önləyici tədbir olaraq qəbul edilsə də, təriqətçilik, radikal təmayüllü dini ideologiyaların yayılmasında fəal iştirak eləyən qüvvələrin də neytrallaşdırılması dövlətin əsas vəzifələrindən olmalıdır.

İşsizlik və yoxsulluq kimi insan ləyaqətini alçaldan, insanı sarsıdan, hər şeydən narazı salan bir vəziyyət yoxdur. Azərbaycan prezidentinin son dövrlərdə apardığı siyasəti təqdir etmək mümkündür. Çünki ölkədə sosial bərabərsizliyin aradan qaldırılması istiqamətində, iş adamlarının fəaliyyətinin genişləndirilməsi istiqamətində addımlar atılır".

Politoloq sonda vurğuladı ki, bu tədbirlərin davam etdirilməsi ölkədə işsizliyin azalmasına gətirib çıxaracaq ki, işsizlik aradan qalxan cəmiyyətlərdə insanların radikal təmayüllü təriqətlərə qoşulması, potensial terrorçuya çevrilməsi kimi zərərli tendensiya aradan xeyli dərəcədə qalxmış olur.

❑ **Etibar SEYİDAĞA**

# Manat ilin sonuna qədər dəyərini saxlaya bilməyəcək...

## Ekspertlər bildirirlər ki, yaxın aylarda devalvasiya ehtimalı böyükdür, iqtisadiyyatda rolu getdikcə aşağı düşən milli valyutanı xilas etmək mümkün olmayacaq...

**Milli valyuta olan manatla bağlı vəziyyət yenidən ciddiləşir. Əksər ekspertlər 1 noyabr parlament seçkilərindən sonra manatın yenidən devalvasiyaya uğrayacağını bildirirdi. Seçki bitib, ekspertlər hələ də təhlükənin real olduğunu vurğulayırlar. Əksəriyyət bu fikirdədir ki, 2015-ci ilin sonuna qədər manatı qorumaq mümkün olmayacaq. Yəni manat yenidən öz dəyərini itirəcək.**

**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, manatın devalvasiyası qaçılmazdır: "Manat ola bilsin ki, ilin sonuna dəyərini saxlaya bildi. Amma yaxın aylarda devalvasiya ehtimalı onsuz da çox böyükdür. Çünki neftin qiymətinin artması ehtimalı yoxdur, azalması ehtimalı böyükdür. Valyuta ehtiyatlarımız azalır. Digər tərəfdən, Federal Rezerv Sistemi də yaxınlarda faiz dərəcəsini artıracaq. Bütün bunlar devalvasiyanı qaçılmaz edir".

**Ekspert Qubad İbadoğlu isə bildirib ki, milli iqtisadiyyat zəiflədikcə manatı qorumaq çətinləşir:** "ABŞ-da iqtisadi artımla bağlı optimist gözləntilərin özünü doğrultması bütövlükdə dünya iqtisadiyyatında yeni tendensiyalar formalaşdırmaqdadır. Aşağı neft qiymətlərinin məcmu tələbə artırıcı təsiri, yumşaq monetar siyasət və davamlı olaraq aparılan liberallaşdırma siyasəti bu ölkədə iqtisadi artımı, məşğulluğu, deflyasiyanı və birbaşa xarici investisiyaları stimullaşdırır. Belə ki, ABŞ-da ümumi daxili məhsul 3-cü rübdə əvvəlki rüblə müqayisədə 3,9 faiz, bütövlükdə isə 2015-ci ilin 9 ayında 2,5 faiz artıb. Nəticədə sentyabr ayında işsizlik səviyyəsi 5,1 faiz, inflyasiya isə - 0,04 faiz oub. Qeyd edək ki, ABŞ-ın Federal Ehtiyat Sistemi- FES bu il üçün 2 faizlik hədəf inflyasiyası elan edib. Proqnozlara görə, 2015-ci ildə ABŞ-a birbaşa xarici investisiyaların həcminin 11 faiz artaraq 1,4 trilyon dollara çatacağı gözlənilir. Bütün bu müsbət tendensiyalar ilk növbədə ABŞ dollarının beynəlxalq bazarlarda mövqeyini möhkəmləndirir. Bununla yanaşı, ABŞ FES Açıq



Bazar Komitəsinin 15-16 dekabrda keçiriləcək növbəti toplantısında banklar üçün uçot dərəcəsinin yüksəldiləcəyi ilə bağlı ehtimallar digər valyutalara, o sıradan da manata olan təzyiqi biz az da artırır".

**Ekspertin sözlərinə görə, bundan başqa, Avropa Mərkəzi Bankının monetar genişlənmə proqramını davam etdirməsi avronun dollara nəzərən məzənnəsini aprel ayından sonra ən aşağı səviyyəyə salıb:** "Beləliklə də xarici valyuta bazarlarında müşahidə olunan dəyişikliklərdən Azərbaycan manatı da təsirlənməkdədir. Xüsusilə də son günlər ABŞ dollarının avroya nəzərən məzənnəsinin daha da möhkəmlənməsi Azərbaycanda nağd dollara tələbatı bir az da artırıb, həmçinin cəmi depozit bazasının valyutalar üzrə strukturunda bu ildən başlayan dəyişikliyi sürətləndirib. Belə ki, bu ilin oktyabrın 1-nə olan məlumata görə, xarici valyuta ilə depozitlərin ümumi yekunda payı 75,4 faizə çatıb. Müqayisə üçün qeyd edək ki, 1 il bundan əvvəl müvafiq göstərici 50,2 faiz təşkil edib. Bütün bunların nəticəsində bir neçə gün əvvəl Azərbaycan Mərkəzi Bankı daxili valyuta bazarında sabitliyi qorumaq üçün bazara 1 gündə 94 milyon dollar əlavə vəsait yerləşdirmək məcburiyyətində qalıb. Göründüyü kimi, getdikcə zəifləyən manat yalnız daxili bazarın vəziyyətindən qaynaqlanan təsirlərə deyil, həm də xarici makroiqtisadi şoklara reaksiya verməkdədir. Nəticədə manata olan işgüzar inam gündən-günə azaldığından onu qorumaq Mərkəzi Banka getdikcə baha başa gəlməkdədir. Şübhəsiz ki, neft qiymətlərinin artması ehtimalının olmadığı yaxın illərdə valyuta bazarında müşahidə olunacaq şokları sadəcə valyuta rezervlərini xərcləməklə tənzimləmək perspektivi görsənmir. Yeni və təminatlı siyasət isə bütövlükdə iqtisadiyyatın, ayrıca isə valyuta bazarının liberallaşdırılması ola bilər. Milli iqtisadiyyat liberal bazar tənzimlənməsinə keçid nə qədər tez təmin olunarsa, bir o qədər də tez dövlətin xərci azala və manatın iqtisadi əsaslarla formalaşma dövrü başlaya bilər. Əks təqdirdə, nominal olaraq məzənnəsi qorunan, amma reallıqda dəyəri və iqtisadiyyatda rolu getdikcə aşağı düşən manatı xilas etmək mümkün olmayacaq. Bu sahədə islahatlar həm də hazırda qeyri-müəyyən şəraitdə gözləmə mövqeyində durub, yaxın gələcəkdə sabit və işgüzar rejimdə fəaliyyət göstərmək istəyən sərmayəçilər və sahibkarlar üçün də vacibdir".

❑ **RÖYA**




# İndiyədək Azərbaycanda 20-dən çox general həbs edilib

## Sabiq daxili işlər naziri İsgəndər Həmidov yeni qandallanan generalları həbsdə nələr gözlədiyindən danışdı: "Hələ çoxlu sayda general var ki, həbs edilməlidirlər və güman ki, ediləcəklər"

**Prezident İlham Əliyevin qəfil sərəncamı ilə Eldar Mahmudovun milli təhlükəsizlik naziri vəzifəsindən azad olunmasından 1 ay ötür. Bu bir ay ərzində ölkənin gündəmini generalların həbs edilməsi prosesi zəbt edib. Son olaraq MTN generalı Akif Çovdarov bir neçə gün öncə qandallandı. Məlumatlara görə, proses yeni generalların saxlanması ilə davam edəcək.**

Qeyd edək ki, Azərbaycanda generalların həbsi yeni hal deyil. 1993-cü ildə Əbülfəz Elçibəy hakimiyyətinə son qoyulduqdan sonra ölkədə başlayan həbs dalğasında bir sıra məşhur generallar dörd divar arasına göndərildi. Onlardan ən məşhuru keçmiş daxili işlər naziri İsgəndər Həmidov idi. Şahin Musayev, Heydər Əliyev iqtidarının ilk ilində milli təhlükəsizlik naziri işləmiş Nəriman İmranov da həbsə atılan məşhur generallardan idilər. Özü də həmin generallara çox ağır cəza kəsilmişdi. İsgəndər Həmidov 14 il, Şahin Musayev 15 il, Nəriman İmranov ömürlük məhkum edilmişdilər. İsgəndər Həmidov 9 illik həbsdə saxlandı və İlham Əliyev hakimiyyətə gəldikdən az sonra azad edildi. Şahin Musayev isə Qobustan həbsxanasında məşhur qaçış olayı zamanı həbsxanadan qaçmağa cəhd edən vaxt güllənib öldürülmüşdü. Rəhim Qazıyevlə birlikdə bir qrup saxlanılan şəxsin MTN-in təcridxanasından qaçmasını təşkil etdiyi ittihamı ilə həbs edilən Nəriman İmranovun isə cəzası öncə ömürlük olsa da sonradan 15 ilə endirildi. 10 ilə yaxın məhkumluq həyatından sonra İmranov əfvlə azadlığa qovuşdu.

Sonrakı illərdə də Azərbaycanda məşhur general qandallama halları yaşanıb. Onlardan ən məşhuru DİN-in idarə rəisi general Zakir Nəsirovun 2005-ci ildə həbs edilməsi idi. Zakir Nəsirov məşhur Hacı Məmmədov olayı ilə bağlı həbs edilib və hələ də dustaq həyatı yaşayır. Son bir ay isə Azərbaycanda ən çox sayda generalın həbs edildiyi dövr kimi tarixə düşdü desək, yanılmarıq. Eldar Mahmudovun MTN naziri vəzifəsindən çıxarılmasından bu gün düz bir ay keçir. Bu bir ayda 10-a yaxın general qandallanıb.

Ümumi götürdükdə 1993-cü ildən indiyə qədər ölkəmizdə 20-dən yuxarı general rütbəsi daşıyan adamın dəmir barmaqlıqlar arxasına göndərildiyini araşdırmamız ortaya çıxarıb.

**Keçmiş daxili işlər naziri İsgəndər Həmidov bu mövzuda "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Elçibəy hakimiyyəti devrildikdən sonrakı 1995-ci ilin sonlarına qədər olan dövrdə həbs edilən generallarla, ondan sonrakı zamanlarda, xüsusən də son bir ayda həbsə atılan generallar arasında böyük fərqlər var:** "Əbülfəz Elçibəy hakimiyyəti devrildikdən sonrakı dövrdə Elçibəy hakimiyyətinin təmsilçiləri sırasında generallar da həbs edildi və onların hamısı siyasi dustaq kimi dünya tərəfindən qəbul edildi. Həmin insanlar qanunları pozmamışdılar. Günahsız yerə həbsə atılmışdılar. Özü də həmin insanlar Azərbaycan qarşısında, onun müstəqilliyi uğrunda böyük işlər görmüşdülər. 1995-ci ildən sonra general həbslərinin yeni mərhələsi başlandı. Bu mərhələ başlanan dövrdən indiyə qədər həyata keçirilən general həbsləri fərqli hadisələrə görə həyata keçirilib. İndi həbs edilən generalların əksəriyyəti isə general olmağa layiq olmayan, bu ölkə üçün heç bir əziyyət çəkməyən adamlardırlar. Onlar ölkənin milli təhlükəsizliyinə təhlükə yaradan, cinayətə qurşanmış adamlardır. Ona görə də belə saxta generalların cəzalandırılması lazım idi. Biz hələ bir neçə il öncə Azərbaycanda insanlara, xüsusən iş adamlarına divan tutan çetenin olduğu barədə xəbərdarlığımızı etmişdik. Biz dəfələrlə bəyan etmişik ki, hər yetənə general rütbəsi verilməməlidir. Asanlıqla bu cür böyük rütbəyə yiyələnmiş adamlar harınlayacaqlar. Mən bir dəfə müsahibəmdə demişdim ki, bu ölkədə çevriliş olsa onu müxalifət yox, hakimiyyətin öz içində olan harınlamışlar edəcəklər".

İ.Həmidov onu da dedi ki, Azərbaycanda hələ çoxlu sayda general var ki, həbs edilməlidirlər və güman ki, həbs ediləcəklər.

**Keçmiş nazir general üçün həbsxanaya düşmənin hansı çətinliklər yaratdığından da danışdı. O vurğuladı ki, xalq hərəkatından çıxmış, çətinliklər, əziyyətlər görmüş generallar üçün həbsxana divarları arasında yaşamaq psixoloji baxımdan o qədər ağır deyildi:** "Sovet tanklarının önündə çıxmış, dəfələrlə ölümlə üz-üzə gəlmiş, hər cür əziyyətlərdən çıxmış şəxslər daxilən hər şeyə hazır idilər. Belə adamlar üçün həbs edilmək faciə deyildi. Həbsxanada da onlara hörmətlə yanaşılır. İndi həbs edilən kabinet generalları, heç bir əziyyət görməyən, ancaq pul yığmaqla məşğul olan və harın həyat tərzi keçirən, insanlara işgəncə vermiş generallar üçün isə həbs çox çətin olacaq. Onlar çox ağır psixoloji, mənəvi sarsıntılar keçirəcəklər. Onlara türmədə məhkumların içində yaşamaq çox çətin olacaq. Onların dustaqlar arasında heç bir hörməti olmayacaq. Onların bəzilərinin vaxtı ilə şərləyib tutdurduqları adamlarla həbsxanada üz-üzə gəlmək ehtimalları da var. Həmin generallar, polkovniklər orada çox ciddi sorğuya çəkiləcəklər. Ona görə də həbsxana onlar üçün çox ağır keçəcək. Bizim həbsimizlə onların həbsini eyniləşdirmək mümkün deyil".

❑ **Etibar SEYİDAĞA**

# Sabiq maliyyə nazirinin fransızlardan üzr istəməsi birmənalı qarşılanmadı


Mehman Əliyev


Natiq Miri

## Mehman Əliyev: "Normal adam heç vaxt bunu etməz..."
## Natiq Miri: "Fransadan üzr istəməyə dəyməz..."

**Sabiq maliyyə naziri, professor Saleh Məmmədov Fransada baş vermiş terror hadisəsinə görə fransız xalqından üzr istəyib. İqtisadçı alimin addımı müzakirələrə səbəb olub. İctimaiyyət tərəfindən S.Məmmədovun fikirləri heç də birmənalı qarşılanmayıb.**

Sabiq maliyyə naziri terror hadisələrinə görə müsəlmanları qınayıb. Onun üzr istəməsindən daha çox, müsəlmanlar barədə dedikləri ciddi əks-səda doğurub. Professorun fikirlərinin əleyhinə çıxanlar lehinə olanlardan çoxluq təşkil edirlər.

**S.Məmmədovun fikirlərini təqdim edirik:** "Fransada baş verən terror hadisəsini birmənalı olaraq lənətləyirəm, dinindən, dilindən, milliyyətindən asılı olmayaraq terrorist terroristdir. Daha pisi odur ki, bu terroru törədən dinimizdən olan şərəfsizlərdir. Daha da pisi odur k, adını ziyalı qoyan əksəriyyət müsəlman ziyalılarımız üstüörtülü də olsa, bu şərəfsizlərə bəraət qazandırır. Bəs deməzsənmi, İraqda, Suriyada, Yəməndə, Əfqanıstanda terroru törədən Fransa imiş. Sanki Taliban, İŞİD, Əsəd, Səddam və daha kimlər hamısı fransızlardı...

Hər şeyi olduğu kimi qiymətləndirib, bu müsəlman xəstəliyinə düzgün diaqnoz qoyub, ximterapiya kimi müalicə etmək lazımdır. Dünyada əksəriyyət savaşların, terrorun səbəbi və iştirakçıları müsəlmanlardı. Suriyada, Misirdə, İraqda, Sudanda və digərlərində baş verən müharibələrdə, terrorda yalnız biz müsəlmanlar günahkardır, bunun da kökündə cahilliyimiz, savadsızlığımız durur.

Allah həlak olanlara rəhmət etsin, bir müsəlman kimi bu dəhşətli cinayətə görə fransız xalqından və bütün dünya sülhsevər insanlarından üzr istəyirəm".

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev professorun fikirlərinin bütün müsəlmanlara şamil olunmadığı qənaətindədir:** "Bu, prinsipcə normaldır. "Bizim aramızda" dedikdə, o, tərəfləri ayırır. Qaldı ki, bu cür problemlərin müsəlmandan dünyasından gəldiyinə, bu faktdır. Sadəcə, səbəblərini bilmək lazımdır. Nədən belə hadisələr törədilir? O, konkret kimləri pislədiyini göstərir. Terrorun İslam ölkələrində formalaşdırıldığı faktdır. Statiskaya baxsaq, bunu açıq şəkildə görərik. Bu cür hadisələrin arxasında nələrin durduğu, kimlər tərəfindən törədildiyi isə başqa məsələdir. Bu məsələnin ətrafında ciddi söhbətlər aparılmalıdır. Saleh müəllim fikirlərini bütün müsəlmanlara şamil etmir. Sadəcə deyir ki, "aramızda olanlar". İŞİD-ə bəraət qazandıra bilərikmi? Normal adam heç vaxt bunu etməz. Üzr istəmək də hesab edirəm ki, bütün müsəlman aləminə şamil olunmur".

**Politoloq Natiq Miri məsələyə iki mövqedən yanaşılmasının vacib olduğunu bildirdi:** "İnsanlıq və İslam baxımından məsələyə yanaşsaq, hadisədə Qərbin nə qədər günahının olub-olmamasından asılı olmayaraq, faciədə ölən insanlar bu məsələlərdə heç bir məsuliyyət daşımırlar. Bir günahsız insanın öldürülməsi belə, Peyğəmbərimizin sözləri ilə desək, bütün dünyanın qətl edilməsi anlamına gəlir. Bu mənada professorun humanizm nöqteyi-nəzərindən fikirlərini qəbul etmək olar. Amma İslam mövqeyindən yanaşsaq, bir qədər düşünmək lazımdır. Çünki bu hadisəni törədənlərin müsəlman olmasına şübhələr var. Bu insanlar müqəddəs Qurana uyğun davranış göstərməyiblər. Öz beyinlərində formalaşan, onlara təqdim olunan yanlış İslam mövqeyindən məsələyə yanaşırlar. Cihad anlayışı ilə bu insanları qətlə yetirirlər. Cihad sözünün mənasında qətl deyilən anlayış yoxdur. Cihad öldürmək deyil, insanı qazanmaq deməkdir. Söhbət üreyin həbsindən gedir. Həqiqi İslamda cihad budur. Qətl İslam tərəfindən qəbul edilmir. Bu kontekstdə şəxsən mən üzr istəməzdim. Çünki bu insanların müsəlman olmalarına şübhə edirəm. Quranı anlayan müsəlman məsum bir insanı öldürməz. Saleh müəllim öz adına üzr istəyirsə, bu haradasa qəbul olunandır. Ancaq bunu müsəlman toplumu adına edirsə, bu yanlışdır. Çünki günahkarlığı qəbul etmək anlamına gəlir. İslam heç vaxt zorakılığı qəbul etmir. Quranın ayələrində bunlar özünü göstərir. Müsəlman toplumu adından Fransadan üzr istəməyə dəyməz. Onu da nəzərə almaq lazımdır ki, Fransa terroru dəstəkləyən, terroru dəstəkləyən ölkələrin önündə gedən bir ölkədir. Fransanın törətdiyi terrorlar müsəlman dünyasının yaddaşından getməyib. Amma bu o demək deyil ki, müsəlmanlar qisas almalıdırlar. Saleh müəllimin öz prinsipləri baxımından üzr istəməsi qəbul oluna bilər".

❑ **Cavanşir ABBASLI**



# Yaxşı ətrafın yaradılması uğrunda

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud İlhamiyyə xanım məni necə aldatdı

**Orqanizm üçün ziyanlı olması haqda söhbətlər gəzsə də tərəvəz turşularının həvəskarı olduğumu qeyd etməliyəm. El dilində bunların “tutma”, “şoraba” kimi maraqlı adları da var. Ona görə turşular haqda xəbərləri dərhal oxuyuram. Sosial şəbəkədə də hansısa dostumun divarında turşu söhbəti görəndə, pis çıxmasın, ağzım sulana-sulana oxuyuram. Bugünlərdə belə bir söhbətdən necə kuryoz yaşadığımı sizə bildirim.**

Demək, istedadlı telejurnalistlərimizdən olan İlhamiyyə Rza bu il deputatlığa namizədliyini irəli sürmüşdü, ancaq təəssüf ki, ona qarşı da saxtakarlıq elədilər, seçilməyə qoymadılar. İlhamiyyə xanım həm də bunu nəzərdə tutaraq 2-3 gün qabaq facebookda təxminən belə yazmışdı: “Bu il başım çox qarışıq oldu, heç bir mürəbbə, turşu hazırlaya bilmədim. Heç bir banka brilyant da düzəltmədim”.

İndi mən bunu oxuyuram, gözümü döyürəm. Çünki ilk dəfə idi brilyant turşusu kimi bir ərzaq məhsulu adı görürdüm. Fikirləşirəm, görəsən, bu nədir. Hətta ağlıma belə bir şey gəldi: brilyantin deyə bir maddə var, bundan saçı-saqqalı parıldatmaq üçün yararlanırlar, nəsə kosmetik vasitədir; fikirləşdim yəqin turşu hazırlamaq üçün bu brilyantin də istifadə edilir. Sonra badımcanın müəyyən qədər parıltılı olması beynimdə oyandı, düşündüm yəqin brilyantin nəsə badımcan növüdür, bunun tutması var. Tam səmimi deyirəm, İlhamiyyə xanımın bunu zarafat üçün yazdığını, məzələndiyini ağlıma gətirmədim.

Sonra isə... Sonra xəbərləri izlədim, məlum oldu keçmiş MTN şefi Eldar Mahmudovun evindən bir balon brilyant (qiymətli daş) çıxması söhbəti var. Halımı təsəvvür edin. Özümə, ağlıma gələnlərə xeyli qımışmışam. İlhamiyyə xanıma da burdan təşəkkürümü göndərirəm - xəbəri olmadan məni də doladığı, amma sonra güldürdüyü üçün.

Vəziyyət bax beləcə çox qarışıqdır. Bakıda payız havası kimi - bilmirsən buludludur, yoxsa küləkli. Yağış kəsir, günəş çıxır, an keçmədən soyuq duman gəlir. Göy qurşağına baxdığın yerdə çiskinə ayazlı düşürsən.

Vergilər nazirinin işdən çıxarılması söhbəti yayılmışdı. Dünən nazirliyin əməkdaşı Şahin müəllim buna belə cavab vermişdi: “Şaiyədir, nazir indi də iş yerindədir”. Guya kiminsə iş yerində olması onun həm də vəzifədə qalmasını göstərir. Rəhmətliyin oğlu, məmurları kreslodan qoparmağın çətinliyi dövründəyik. Son çağlar gör nə qədər vəzifəli şəxsin işdən çıxarılandan sonra kabineti tərk eləmədiyi, dirəndiyi yayılıb? İndi mən bu yazını təhvil verdiyim anlarda da kim bilir, bəlkə vergilər naziri artıq “balonlarını” təhvil verir? Bəlkə onu qurbağaya döndərəcəklər? Hər şey mümkündür.

Kimin ağlına gələrdi ki, biz Çovdarovun qandallanması səhnəsini əyani görəcəyik? Mən bu istiqamətdə prezidenti dəstəkləyirəm. Daha çox general var tutulmalı. Daha çox nazir işdən qovulmalıdır. Bu arada siyasi dustaqlar da azad edilsə islahat lap gözəl görünərdi.

Oxucular deyə bilər, aha, bu da satıldı. Haqlısınız, belə görünür. Ancaq vəziyyət yuxarıda yazdığım kimi, ərəb saçına dönüb. Əgər Prezident Administrasiyası, Strateji Araşdırmalar Mərkəzinin şöbə müdiri Vüsal Qasımlı “Obama G20 görüşündə İlham Əliyevin qoluna toxundu, bu, cənab prezidentə yaxınlıq əlamətidir, eyni zamanda Qarabağ danışıqlarında bizim xeyrimizə irəliləyişdən xəbər verir” tipində yazı yazırsa, mən nə yazım? Mən məcburam hakimiyyətə dəstək verim. Çünki bu hakimiyyət belə istedadlı insanların qədrini bilir, qabağa çəkir. Çovdarovun tutulmasını dəstəkləyəndən sonra bəlkə məni "ASAN-xidmət"də köşə yazarı vəzifəsinə qoydular.

Xalqımızın bir qisminin də bir az nankor olmasını görürəm, bu çox pisdir. Deyirlər guya Çovdarovun cinayətləri indi bilindi, niyə tutmurdular bu vaxtacan, başqalarını niyə tutmurlar və sairə. Yoldaşlar, niyə tələsirsiniz? Niyə yaxşı işə dəstək vermək əvəzinə köhnə palan içi tökürsünüz? İmkan verin. Hərəniz bir nazirin, generalın qulpundan yapışın, cənab prezidentlə bərabər onların hamısını aşırdaq. Camaat elə illərdir “Prezident yaxşıdır, ətrafı pisdir” deyərkən bu halları uzaqgörənliklə qeyd edirdi.

# Vergilər nazirinin də işdən çıxarılması xəbəri yayıldı

**Prezident İlham Əliyevin daha bir naziri işdən çıxarması xəbəri yayılıb. Xəbərdə bildirilir ki, bu dəfə vergilər naziri Fazil Məmmədov işdən azad edilib. İddia olunur ki, prezident bu barədə sərəncamı G20 (“böyük iyirmilik”) ölkələri liderlərinin Antalya sammitinə yola düşməzdən öncə imzalayıb. Yeni vergilər naziri isə Dövlət Sosial Müdafiə Fondunun sədri Elman Mehdiyevin təyin edildiyi iddia olunur.**



# Fazil Məmmədov kabinetindədir, amma...

## Fazil Məmmədovun nazir postunu 15 il saxlamasının ən böyük sirri onun adının heç vaxt “dövlət çevrilişi”, “siyasi və maliyyə xəyanəti”, eləcə də “müxalifətlə əlaqə” kimi məsələlərdə hallanmamasıdır; prezidentin son qətiyyəti addımlarının təhlili göstərir ki, indi təkcə vergilər nazirinin deyil, bir neçə nazirlik rəhbərinin, eləcə də komitə sədrinin “kabinetində olması” vəzifələrində rahat oturması demək deyil...

“Vergilər Nazirliyinin rəhbərliyinin ətrafında da xüsusi əməliyyatlar aparılır. MTN-də olduğu kimi, burada da xüsusi təmizləmə əməliyyatı aparılacaq, rəhbərlik tam yenilənəcək. İş adamlarından olan şikayətlərin əksəriyyəti vergi xidmətinin payına düşür. Prezident Antalya sammitindən qayıtdıqdan sonra sərəncamlar rəsmən elan ediləcək” deyə, yayılmış xəbərlərdə bildirilir.

### Fazil Məmmədov “fenomeni”

2000-ci ilin fevral ayından vergilər naziri olan Fazil Məmmədovun bu illər ərzində bir neçə dəfə “işdən çıxarılması”, “həbs edilməsi”, hətta “ağır xəstəliyə tutulması” barədə xəbərlər yayılıb. Heydər Əliyevin dövründə əvvəl Gömrük Komitəsinin sədr müavini, sonra isə Baş Dövlət Vergi Müfəttişliyinin rəisi olmuş 36 yaşlı F.Məmmədova 2000-ci ilin 11 fevralında nazir vəzifəsi verilməsi o zaman siyasi kuluarlarda fərqli reaksiyalar yaratmışdı. İki regionun hakimiyyətdə güclü təmsilçiliyi olduğu bir dönəmdə şəmkirli F. Məmmədovun belə yüksək posta görəvləndirilməsi birmənalı qarşılanmamışdı. F. Məmmədov hələ Gömrük Komitəsində təkcə təcrübə deyil, həm də müəyyən kapital toplaya bilmişdi ki, tədricən bu pullarla özünün iqtisadi imperiyasını qura bildi. 2003-cü il hakimiyyət dəyişikliyindən bir müddət sonra F.Məmmədov mövqelərini daha da gücləndirdi, iqtisadi sferada əsas söz sahiblərindən birinə, məmur-oliqarxa çevrildi. F.Məmmədov əvvəlki sadə vergi müfəttişi imicindən qurtularaq həm icra strukturlarında, həm hökumətdə, həm də parlamentdə öz adamlarını yerləşdirməyə başladı. Hər il vergiləri “qəpiyinəcən” büdcəyə ödəyən F.Məmmədov səriştəli kadr kimi də tanındı ki, məmurlar arasında qeyri-rəsmi quberniya bölgüsündə o da qərb regionundan pay aldı. Vergi nazirinin çaxır biznesi ilə başladığı iqtisadi imperiyasına indi bir sıra MDB dövlətlərində və Avropada ən müxtəlif profilli zavod-fabriklər, restoran-hotellər daxildir.

Vaxtilə “kölgəsində” olduğu bir nazirlə yollarını ayıran F.Məmmədov hakimiyyətdə özünə daha güclü himayədarlar da tapdı. F.Məmmədovun “düşərgəsini dəyişməsi” ilə mediada onunla bağlı kompromatların sayı artdı. Vergilər Nazirliyi elə bir spesifik sahədir ki, vergiödəyicisi həmişə narazı qalır. Bu səbəbdən də F.Məmmədovla bağlı kompromatlar yalnız mediada müəyyən müddət dövr etdikdən sonra unudulur, sonra yenidən dövriyyəyə girir. Şübhəsiz ki, F.Məmmədovun nazir postunu 15 il saxlamasının ən böyük sirri onun adının heç vaxt “ dövlət çevrilişi”, “siyasi və maliyyə xəyanəti”, eləcə də “müxalifətlə əlaqə” kimi məsələlərdə hallanmamasıdır.

### İşdən çıxarılacaq nazirlər sırasında adı birinci idi...

Neft bumu bitdikdən sonra isə digər nazirlər kimi, F.Məmmədovun da “qara günləri” başlayıb. Prezidentin yanvarın 16-da keçirdiyi ilin ilk müşavirəsində məmurları sərt tənqid etməsi əslində “ilin yol xəritəsi” də hesab oluna bilər.

**“Məmurlar yaddan çıxarmamalıdırlar ki, onlar xalq üçün işləyirlər, onlar xalqın xidmətçiləridir. Dəfələrlə demişəm ki, mən birinci xidmətçiyəm. Xalqın birinci xidmətçisi prezident olmalıdır, çünki xalq bizə inanır, bizə bu missiyanı aparmağı həvalə edib, tapşırıb”.** Prezident işinə məsuliyyətlə yanaşmayan məmurların cəzalandırılacağını da söyləmişdi: **“Etimadı doğrultmayan məmurlar bundan sonra da cəzalandırılacaqlar”.**

Bundan sonrakı müşavirələrdə isə prezident istisnasız olaraq artıq konkret nazirlərin rəhbərlik etdiyi sahələri tənqid etməyə başladı ki, bu sırada ilk yerdə Fazil Məmmədov gəlir: **“Sahibkarları boğurlar, soyurlar, incidirlər. Bu, dözülməz haldır. Bax, 30 minə yaxın iş yeri bağlanıb, 67 min daimi iş yeri yaradılıb, 30 mini bağlanıb. Mənə məlumat verilsin ki, o iş yerləri hansı səbəblər üzündən bağlanıb. O müəssisələrin rəhbərlərini dəvət etmək, soruşmaq lazımdır. Buna son qoyulmalıdır”.**

Vergilər Nazirliyinə ünvanlanmış daha bir sitata diqqət yetirək: **“Gəlirlər, əsassız tələblər irəli sürürlər, sanki bunlara kimsə borcludur. Heç kim heç kimə borclu deyil. Bu əməlləri törədənlər ciddi şəkildə cəzalandırılacaq. Onlar bu çirkin əməllərdən əl çəksinlər. Bu, ilk növbədə bizim siyasətimizə ziddir. Digər tərəfdən, bu, imkan vermir ki, iqtisadiyyatımız tam şəkildə inkişaf etsin, sahibkarlar ölkədə rahat işləsinlər.**

**Mənə verilən məlumata görə, lisenziyaların sayı getdikcə artır. Əksinə, azalmalıdır, amma bizdə artır. Nəyə görə? Çünki müvafiq qurumlar çalışırlar ki, lisenziyaların sayını artırsınlar. Lisenziya da nədir? Pul mənbəyidir. Qanunsuz varlanma metodudur".**

Oktyabrın 12-də keçirdiyi son müşavirədə isə F.Məmmədov üçün daha bir SOS siqnalı verildi: **“Biz liberal iqtisadiyyat, bazar iqtisadiyyatı modelini seçmişik və bu yolla gedirik. Əgər rüşvətxorluq, korrupsiya, yoxlamalar, lisenziyalar, haqqoyma olmasaydı, görün büdcəmiz nə qədər arta bilərdi?! Buna nə qədər dözmək olar?! Artıq qurtardı, yəni hövsələ tükənib. Hər kəs nəticə çıxarsın. Nəticə çıxarmasa, cəzalandırılacaq”.**

### Kabinetindədir, amma...

MTN-də sahibkarla bağlı cinayətlərin üzə çıxması ilk olaraq Vergilər Nazirliyinə sıçradı. Nazirliyin cinayət xarakterli vergi hüquqpozmalarının təhlili və vergi borclarının alınması işinin təşkili Baş İdarəsinin rəisi Vidadi Məmmədov həbs edildi. Vidadi Məmmədov MTN-in sabiq rəhbəri Eldar Mahmudovun ən yaxın adamlarından sayılır. V.Məmmədov MTN-də olan dəstə ilə birgə iş adamlarına qarşı fəaliyyətdə şübhəli bilinir. Vidadi Məmmədov haqda rəsmi ittiham hələ də yoxdur. Məlumata görə, biznesmenlərdən vergidən əlavə pul ala bilməyəndə dərhal həmin iş adamı haqqında məlumatları MTN-dəki şəriklərinə ötürürmüş. MTN çetesi də şantaj, hədə-qorxu yolu ilə həmin biznesmenləri soyurmuş. Maraqlıdır ki, F.Məmmədov 13 iyun müşavirəsində sərt tənqiddən sonra nazirlikdə struktur islahatı həyata keçirərək, yeni qurumlar yaratmışdı.

V.Məmmədov həbs edilməmişdən cəmi bir neçə ay əvvəl həmin islahatlardan sonra yaradılmış Baş İdarəyə rəis təyin olunmuşdu. MTN-dəki müdhiş cinayət faktlarında Vidadi Məmmədovun ortaqlığı üzə çıxdıqda sonra belə məlum olur ki, vergilər naziri, sən demə, “quzunu qurda tapşırıbmış”. İnandırıcı deyil ki, Vergilər Nazirliyində Eldar Mahmudovun ən yaxın adamının illərlə sahibkarlardan necə milyonlar qopardığından Fazil Məmmədov xəbərsiz olsun. Əgər Fazil Məmmədov “MTN işi”nin bitirdiyi sabiq nazir Əli Abbasov kimi nazirliyi Mahmudov çetesinin nəzarətinə verdiyini etiraf edərsə, bu, ona daha baha başa gələ bilər.

Vergilər Nazirliyi noyabrın 16-da yayılan xəbərlərə “Fazil Məmmədovun öz kabinetindədir” cümləsi ilə təkzib verib. F.Məmmədov ciddi tənqid hədəfinə çevriləndə Mahmudov da, Abbasov da arxayın işlərinin başında idilər. İşdən çıxarılacaq nazirlər sırasında isə Fazil Məmmədovun adı ən birinci sırada çəkilirdi. Prezidentin son qətiyyəti addımlarının təhlili göstərir ki, indi təkcə vergilər nazirinin deyil, bir neçə nazirlik rəhbərinin, eləcə də komitə sədrinin “kabinetində olması” vəzifələrində rahat oturması demək deyil...

❑ “Yeni Müsavat”

**Türkiyənin ev sahibliyi ilə keçirilən G-20 zirvə toplantısının ikinci günündə də bir sıra toplantılar keçirildi. Zirvə töreni üçün möhtəşəm hazırlıqlar həyata keçirmiş Kaya Otelin Mədəniyyət Evində isə G-20 liderlərinin xanımlarının iştirakı ilə maraqlı bir törən düzənlənmişdi.**



# Azərbaycanın birinci ledisi "Yeni Müsavat"a müsahibə verdi

## Əməkdaşımız G-20-lərin toplantısından yazır; **Mehriban Əliyeva:** "Azərbaycanın burda olması çox gözəldir"

Türkiyənin dünyada daha da tanıdılması məqsədilə düzənlənmiş mərasimdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, Türkiyənin birinci xanımı Əminə Ərdoğan, həmçinin Yeni Zellandiya, Cənubi Afrika, Hindistan, İspaniya və digər ölkələrin liderlərinin xanımları iştirak edirdi.

Təqribən 2 saata yaxın davam edən törəndən sonra dünyanın dörd bir tərəfindən gəlmiş media mənsublarına foto və videoişəkilişlər üçün izn verildi. Xanımlar bərabər fotolar çəkdirdikdən sonra Azərbaycan prezidentinin xanımına yaxınlaşıb "Yeni Müsavat" üçün zirvə toplantısı ilə bağlı dəyərləndirməsini soruşduq.

Mehriban Əliyevə qəzetimizə açıqlamasında Türkiyənin G-20 zirvəsində fəxri qonaq statusunda Azərbaycana ünvanladığı dəvətindən məmnunluğunu ifadə etdi və qardaş ölkəyə minnətdarlığını bildirdi: **"İlk növbədə təşəkkürümü bildirirəm ki, sayın cümhurbaşqanı bizi zirvə toplantısına dəvət edib. Əlbəttə, Azərbaycanın burda olması çox gözəldir və məncə, hər şey çox uğurlu keçir".**

Sualımızı səmimi çəkildə cavablandıran Mehriban xanım sonda "Yeni Müsavat"ın əməkdaşı ilə özçəkim etməyə də etiraz etmədi...

Türkiyə prezidentinin xanımı Əminə Ərdoğan da "Yeni Müsavat"ın əməkdaşına açıqlamasında G-20-nin yüksək səviyyədə davam etdiyini və uğurlu keçdiyini söylədi. Daha sonra birinci xanımlar səmimi şəkildə görüşüb ayrıldılar. Azərbaycan və Türkiyənin birinci ledilərinin səmimiyyəti və ayrılarkən də bir neçə dəqiqə ikilikdə söhbətləşib ayrılmaları xüsusi diqqət çəkdi. Bütün bunlar isə dünyanın nüfuzlu televiziya və qəzet jurnalistlərinin gözü qarşısında baş verdiyindən həm də dost-düşmənə mesaj kimi anlaşıla bilər. Qeyd edək ki, G-20-nin xanımlarla bağlı toplantısı ilk olaraq Türkiyənin ev sahibliyi ilə baş tutdu...





**❑ Elşad PAŞASOY**
**Foto müəllifindir**
**Antalya, G-20**

# Paris olayları Avropanı müsəlmanlara cəhənnəm edə bilərmi...

## **Elbəyi Həsənli:** "Əminəm ki, qoca Avropa bu təxribata uymayacaq"
## **Mirzə Sakit:** "Bu terror müsəlmanlara təzyiqlər göstərilməsi üçün törədilib"

**Parisdə baş verən məlum terror aktı dünyanın gündəmini zəbt edib. Dünya mediası terror aktı sonrası baş verənləri anbaan izləyir və gəlişmələri oxucularla paylaşır. Musavat.com isə Fransada yaşayan həmvətənlərimizdən bu olayla bağlı sorğu keçirib. Hisləri, yaşadıqları və baş vermiş olayın onların Fransadakı həyatlarına təsirini soruşub.**



**Fransada mühacir həyatı yaşayan Azərbaycan Beynəlxalq Universitetinin sabiq rektoru Elşad Abdullayev** musavat.com-a açıqlamasında bildirdi ki, Parisin mərkəzində yaşayır və indi hər şey normaldır: "Hüquq-mühafizə orqanları hadisə yerinə nəzarət edir. Parisdə normal həyat davam edir, Qaldı mənə, öz işimlə məşğulam, 2 illik vəkillik kursunda dərsdəyəm, dil kurslarına hazırlaşıram. Doktorluq işimi hazırlayıram, gələn ili doktorluq işimi müdafiəyə çıxaracağam. Avropanınsəsi.com internet onlayn qəzetimizi yaratmışıq, müntəzəm olaraq Azərbaycan və Avropada baş verən hadisələr haqqında yazılarla çıxış edirik".

**Jurnalist Aqil Xəlil** də baş vermiş terror aktının faciəvi miqyasda olduğunu dedi. Müsahibimiz səhhətlərində və həyatlarında hər hansı itki olmadığını bildirdi.

**"Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahid terror aktının onların yaşadığı yerdən xeyli uzaqda baş verdiyini dedi:** "Bu, olay deyil, vəhşilikdir. O ki qaldı bu hadisədən sonra Fransada yaşamağın bizim üçün təhlükəli olub-olmamasına, təhlükəli görünmür. Terror Fransa və Avropaya dəxli olmayan yerlərdə daha iri miqyaslıdır. Burda epizodlar, oralarda isə prosesdir. Hislər coğrafiya ilə müəyyən olunmur ki... Bu, terrorun yaratdığı hissdir və insanın harada yerləşməyindən asılı olmayaraq eynidir".

Amma bu olayda diqqəti çəkən başqa nüanslar da var. Belə ki, məlum teraktdan sonra Avropadakı müsəlmanlara münasibət pisləşib. Mühacir çadırlarının yandırılması, məscidlərə hücumlar bu örnəklərdən sadəcə bir neçəsidir. Maraqlıdır, bu olaydan sonra Avropa müsəlmanlara cəhənnəm ola bilərmi?

**İsveçrədə yaşayan mühacir Elbəyi Həsənli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, zorakılığın bütün növlərini, xüsusən də terroru şiddətlə qınayır:** "Parisdə yüzdən çox insanın qətli ilə nəticələnmiş son terror aksiyası öz miqyasına görə Avropada indiyə qədər baş verən terror olaylarını arxada qoydu. Fransa sarsıldı. Və hazırda bu ölkədə İslama və müsəlmanlarsa qarşı yönəlmiş aqressiv hərəkətlər həmin sarsıntının nümayişidir. Təbii ki, bu, yolverilməzdir. Zorakılığa zorakılıqla cavab vermək olmaz. Zatən İŞİD-in əsas məqsədi sivilizasiyalar arasında Çin səddi çəkməkdən ibarətdir. Əminəm ki, qoca Avropa bu təxribata uymayacaq. Tezliklə hər şey əvvəlki axarına dönəcək".

**E.Həsənli bildirdi ki, Parisdə törədilən vəhşilik bir daha dünyanın hər yerində terrorçuların öz çirkin əməllərini həyata keçirə biləcəyini sübut etdi:** "Ona görə də terrora qarşı mübarizə, daha doğrusu, mübarizə Qərbin və İslam dünyasının müştərək hədəfi olmalıdır. Xüsusən müsəlmanlar terrora qarşı mövqe ortaya qoymalıdır. Ümid edirəm ki, terrorla bağlı məsuliyyətdən doğan ciddi qərarlar qəbul olunacaq".

**Belçikada yaşayan mühacir satirik Mirzə Sakit isə hesab edir ki, bu, ərəblərin Avropada özlərini xozeyn kimi aparması-na bir cavabdır. Müsahibimizin fikrincə, ərəblər gerçəkdən də Avropada çox eybəcərliklər törədirlər:** "Mən də elə düşünürəm ki, bu terrorun bir versiyası müsəlmanlara təzyiqlər göstərilməsi üçün törədilib".

**❑ Sevinc TELMANQIZI**

# Niyə belə gerilədin, Şərq?



**Hüseynbala SƏLİMOV**

**Diqqət daxildəki maraqlı və həyəcanlı proseslərdən, Fransada baş vermiş müdhiş terror aktından tədricən Türkiyəyə, böyük 20-liyin toplantısına yönəldi. Doğrusu, məni bu prosesdə daha çox Səudiyyə kralının özü üçün hazırladığı təmtəraq maraqlandırdı. Düşünürəm ki, diqqətli oxucu da həmin bu məqamı nəzərdən qaçırmadı...**

Şərq və Qərb məsələlərindən, dünyanın bu iki kəsiminin bir-birindən siyasi və ictimai fərqlərindən çox yazırıq, çox danışırıq. Amma 20-liyin Türkiyədəki toplantısı da belə müqayisələr aparmaq üçün bir fürsətdir. Gərək biz də bu fürsəti qaçırmayaq...

Fəqət, etiraf edirəm ki, qeyri-adi, fövqəladə dərəcədə yeni bir şey də yoxdur və Şərq despotlarının təmtərağı necə sevdiyi hamıya yaxşıca bəllidir. Nədən belə olur? Nədən Şərq despotları bu qədər "fərqlənməyi" sevirlər?

Doğrusu, mən də bu suallara cavab verməkdə acizəm. Bircə onu deyə bilərəm ki, onlar despotlardır və despotlara uyğun da həyat tərzi keçirməyə alışıblar və bu, onların cəmiyyətlərinə elə də qeyri-adi görünmür...

Hələ yayda Səudiyyə kralının Fransada bir çimərliyi özü üçün bağlatdırdığı haqda xəbərlər yayılmışdı. Deyim ki, Fransanın prezidentləri özləri üçün heç bir vaxt belə bir təmtəraq qura bilməzlər...

Amma Şərq despotları edirlər. Ən maraqlısı isə bilirsiniz nədir? Böyük 20-lik dövlətləri kimi qüdrətləri yoxdur bu ölkələrin. Fəqət, Yaponiya kimi dövlətin baş nazirinin gündə 1000-1200 dollarlıq xərclə kifayətləndiyi halda Səudiyyə kralının xərcləri 15-20 milyon dollar təşkil etdi. Amma Yaponiya hara, bizim məşhur Səudiyyə krallığı hara?

Dinimiz qənaətcilliyi tövsiyyə edir. Müqəddəslərimiz də həmişə qənaətcilliklərilə seçilib. Belə olan halda müsəlman dövlətlərinin başçılarında haradandır belə təmtəraqçılıq?

Düşünürəm ki, məsələ cəmiyyətlərdədir. Yaponiyada cəmiyyət diqqətli və güclüdür, onlar imkan verməz ki, baş nazirlər həddi aşsınlar, dərhal onları bir başqası ilə əvəz edərlər. Amma Səudiyyə kralına kim nə deyəcək? Bəli, onlar kraldır, bölünməz və mütləq hakimiyyətə malikdirlər...

Amma krallar Avropada da var. Bəlkə də ən böyük kral İngiltərənin kralıdır.

Amma İngiltərə kraliçasının deyilənə görə, hətta şəxsi təyyarəsi də yoxdur və bu ölkədə kralın xərclərini parlament təsdiq edir, özü də hər bir maddəni, hər bir detalı yüz dəfə ölçüb-biçərək...

Bir ara Hegelə acıqlı idim. Ona görə ki, o, azadlıq ideyasının haralarda pərvəriş tapdığını yazarkən Şərqdən tamam yan keçmişdi. Və onun yazdıqlarından belə nəticə alınırdı ki, Şərqdə heç vaxt azadlıq olmayıb. Amma indi görürəm ki, haqlı imiş - Şərqdə həmişə bir nəfər adam azad olub, yalnız bir nəfər azadlığın nə olduğunu bilib. Onlar da Şərqin müstəbidləri olublar...

Bəlkə də min il bundan əvvəl nələrəsə haqq qazandırmaq olardı. Ona görə ki, min il bundan əvvəl Şərqin qüdrəti vardı. İndi nə var? Türkiyə yeganə müsəlman ölkəsidir ki, güclü dövlət olmağa iddialıdır. Amma Qərb bu nümunəni görmür, onu təqdir etmir. Niyə? Bəlkə ona görə ki, onlar elə özləri də maraqlıdır ki, Şərq elə bu cür olaraq qalsın? Bilmirəm...

Tez-tez Şərq deyirik. Amma unduruq ki, uzaq Şərq ölkələri də var və onlar Qərbin bütün stereotiplərini heç ediblər və yüksək inkişafa nail olublar. Buna hətta inkişaf da demək olmur, çünki əsl sıçrayışdır. Deməli, problem bu ölkələrlə bağlı deyil, müsəlman Şərqilə bağlıdır...

Nədən belə oldu? Nədən bu qədər geridə qaldıq? Çətin suallardır. Kimsə desə ki, bu sualların cavabını bilirəm, inanmayın, heç kim birmənalı olaraq bir şey bilmir. Burada bəlkə L.Gumilyova da müraciət etmək olardı. Bəlkə müsəlman Şərqi üçün inkişaf fazası ötüb keçib?..

Bilmirəm, bilmirəm və yenə də bilmirəm... Bəzən mənə elə gəlir ki, bu sualın cavabının astanasındayam. Dərhal da aydın olur ki, yox, mən heç nə bilmirəm və cavablardan çox suallar yazmağa qadirəm...

Müsəlman ölkələrinin geriliyini onların siyasi sistemlərində aramaq olardı. Di gəl ki, Avropa ölkələri də birdən azad olmayıb, onlar da avtroritar ölkə mərhələsini keçiblər.

Ağlıma gəlir ki, Şərqdə əməlli-başlı sənaye kapitalizmi olmayıb, o, bu mərhələni keçməyib. Təbii resurslar onları inkişafdan saxlayıb, düşünməkdən, yeni inkişaf üçün zəmin ola biləcək axtarışlardan məhrum edib.

Qərbli Dekart isə deyirdi ki, düşünürəmsə, deməli yaşayıram. Düşünmürəmsə, deməli günü-günə calayıram...



# Diş altındakı iştahın "yediyi başlar"

**Xalid KAZIMLI**

**İlk gündən, yəni oktyabrın 17-dən, daha dəqiqi, Eldar Mahmudov milli təhlükəsizlik naziri vəzifəsindən götürülən andan şübhə vardı ki, bu fərmanın arxasında siyasi səbəblər durur.**

"Siyasi səbəblər" deyərkən,əsasən hakimiyyət məsələsi nəzərdə tutulur. Rəsmən elan edilən "iqtisadi cinayətlər"ə dair ittihamlar sanki bir az bəhanə xarakteri daşıyırdı.

Hiss olunurdu ki, Eldar Mahmudov və onun rəhbərlik etdiyi generallar, polkovniklər çetesi hakimiyyət başçısına sədaqətlərində də səhvə, xəyanətə yol veriblər və kütləvi şəkildə qandallanmaları buna görədir.

İqtisadi cinayətlərin cəzalandırılması bu qədər şiddətli ola bilməzdi. Məmurların 99, 99 faizinin bu və ya digər dərinlikdə daldığı korrupsiya bataqlığı, hər halda, bu qədər ciddi cəza əməliyyatlarına səbəb olmazdı.

Belə hallarda bir qayda olaraq, yanmış korrupsionerlərin varidatını əlindən alır, ancaq onunla tısbağa kimi davranırlar, öldürmür, eləcə arxası üstə çevirirlər ki, öz-özünə çabalasın.

Təcrübədən bilirik ki, vəzifədən çıxarılan nazir, nazir müavinləri, generallar bir də həbs edilirsə, demək, ortada dövlət başçısına şəxsi sədaqət müstəvisində səhv ediblər, daha pisi, hakimiyyəti götürmək sevdasına düşüblər.

Eldar Mahmudovun mütəşəkkil qrupunun hakimiyyət sevdasına düşməsinə dair informasiyalar çox yenidir. Ortada MTN-in az qala qeyri-rəsmi ikinci adamı olan Akif Çovdarovun dediyi bir ifadə fırlanır: "Eldar Mahmudov baş nazir olmalıdır".

Əlbəttə, Artur Rasizadənin və ya Samir Şərifovun, yaxud da Əli Həsənovun baş nazir olmasıyla, Eldar Mahmudovun baş nazir olmasının arasında dağla düz qədər fərq var.

Arxasında heç bir hərbi qüvvə, gizli servis dayanmayan mülki şəxs baş nazir olsa, özünün hakimiyyət əldə etmə niyyətini asanlıqla həyata keçirə bilməz. Ona mane olan mütəşəkkil qüvvələr tapılar.

Ancaq ölkənin ən qüdrətli dövlət strukturunun rəhbəri dövlətin ikinci postuna yiyələnərsə, onun qısa müddətdən sonra birinci adam olması artıq texniki-siyasi məsələdir.

Dünyanın hər yerində gizli xidmətlərin şefi öz nazir həmkarlarını ram etmək üçün güclü rıçaqlara malik olurlar və bu, məkr, şantaj yuvası olan Şərqdə daha da şiddətlidir.

Ölkəboyu dinləmələr həyata keçirən, ən müasir foto-video çəkiliş avadanlıqlarıyla təchiz olunmuş bir struktur ölkə elitasının təmsilçilərinin bütün kirli camaşırlarına, gizli əlaqələrinə dair sənədlər, sübutlar əldə edə bilər.

İnformasiyalar göstərir ki, Mahmudovun dəstəsi məhz bu işlə məşğul olub və onların əlinin altında böyük kompromat bazası varmış.

Burası sübuta yetirilib, generallar bu kompromat və digər informasiyalardan şəxsi varidatlarını artırmaq üçün gen-bol istifadə ediblər. Hamısı milyonçu olub. Bəs bununla kifayətləniblərmi?

Belə anlaşılır ki, xeyr, iştah diş altında olduğu üçün ölkənin ən varlı, ən səlahiyyətli adamlarına çevrilmiş generallar tam hakimiyyət əldə etmək niyyətində olublar.

Görünür, Rusiyanın daxili siyasətini təqlid etmək mərəzi MTN-ə də yoluxubmuş və generallar hesab ediblər ki, Rusiyada əsas hakimiyyət təhlükəsizlik zabitlərinə, generallara məxsus olduğu kimi, eyni şey Azərbaycanda da ola bilər.

İndilikdə biz sızıb gələn məhdud informasiyalara, daha çox isə əlamətlərə və rəsmi xəbəri yayılan olayların pərdəarxası təfərrüatlarına əsasən bu cür qənaətlərə gələ bilirik. Amma şübhəsiz ki, nazirləri və onların müavinlərini ard-arda vəzifələrindən götürən, bəzilərini isə məhbəsə yola salan hakim dairənin əlində daha aydın, detallı bilgilər var.

Bununla belə, "ikinci 17 oktyabr vaqiəsi"nin əsas səbəbinin MTN generallarının hakimiyyət çevrilişinə cəhdi olsa belə, bu, heç vaxt açıqlanmaya bilər. 10 il əvvəlin 17 oktyabrında olduğu kimi.

Xatırlayırsınızsa, o vaxtlar da nazirləri və onların adamlarını yalnız CM-in iqtisadi cinayətkarlığa dair maddələri ilə mühakimə etdilər. Çevrilişə dair təhqiqat aparmaq, dəlil-sübut toplamaq həm çətindir, həm də qalmaqallı çox olur. Salamatı budur: xirtdəyə qədər korrupsiyanın içində olanları korrupsioner deyə xirtdəkləmək.

# MTN Qobustanda qədim qəbiristanlıqdakı vandalizmi araşdırmağa başladı

## Əcdadlarının qəbrlərini dağıdanların cəzalanmasını tələb edən icma sədri hədələnib; Qobustanın icra başçısı dəhşətli əməli absurd arayışı ilə ört-basdır etmək istəyir!

**Milli Təhlükəsizlik Nazirliyi Qobustan rayonunun Ceyrankeçməz qəsəbəsindəki məzarlığın dağıdılmasını araşdıracaq. Bu haqda Müşfiqabad qəsəbə dini icmanın sədri İlşad Süleymanov məlumat verib. İ.Süleymanov qəbiristanlıqda baş verən vandalizm aktı və ondan sonra baş verənlər haqda redaksiyamıza ətraflı danışıb. Yada salaq ki, bu il avqustun 8-də baş vermiş vandalizmlə bağlı "Yeni Müsavat"ın noyabrın 5-də işıq üzü görmüş sayında "MTN-in şöbə rəisi qızıl tapmaq üçün qədim qəbiristanlığı dağıdıb?" sərlövhəli yazı dərc olunub.**



Qəsəbə sakinlərindən birinin adından redaksiyamıza daxil olan məlumata əsaslanan həmin yazıda qeyd olunurdu ki, məzarlıq yerlə-yeksan olunub, 53 qəbirdən ölülərin sümükləri çıxarılaraq çölə atılıb. Bu cinayət törədilərkən Az 90 SE 067, Az 90 TO 883, Az 10 RE 666 dövlət nömrə nişanlı maşınlar orada olub. Həmin şəxslərin fəaliyyəti nəticəsində "İlanlı bəyləri"nə məxsus qədim qəbiristanlıq dağıdılıb.

**İcma sədri İ.Süleymanov deyir ki, bu il avqustun 8-də ona Ceyrankeçməzdə olan qəbiristanlığın dağıdılması haqda məlumat verilib:** "Qəsəbə sakinləri dedilər ki, qəbiristanlıq avqustun 7-dən 8-nə keçən gecə dağıdılıb. Orada bizim 3 qəbiristanlıq olub. "Diri baba"nın önündə biri, Ceyrankeməzdə çayın kənarında ikinci və İlanlıda üçüncü qəbiristanlıq vardı. Biz hadisə ilə bağlı polisə məlumat verdik. Sonradan Qobustan polis şöbəsinin rəisi Ceyhun müəllim mənə zəng edib dedi ki, cinayətkarı axtarıq. Sonradan mən xaricə getdim. Avqustun 17-də qayıdandan sonra Ceyhun müəllim zəng edib dedi ki, gözün aydın, cinayətkar tapılıb".

**İ.Süleymanov deyir ki, sonradan onunla Zamiq adlı bir şəxs tanış olub və qəbiristanlığın onun qardaşı tərəfindən səhvən dağıdıldığını deyib:** "Zamiq Hüseynovu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bakı şəhər şöbəsinin rəisi Anar müəllimin kabinetində gördüm. Anar müəllim dedi ki, bu adam səninlə danışmaq istəyir. Başında az tük olan hündürboylu bir nəfər oturmuşdu. Həmin adam durub məni qucaqladı. Dedi ki, qəbiristanlığı səhvən qazan qardaşımdır. Onun kimliyi ilə maraqlandım, dedi ki, "KQB"də işləyirəm, adım Zamiqdir. Qardaşım oranı bilmədən qazıb. Gedib oranı bərpa edək. Xeyli yalvardı, razılaşdım".

**İcma sədri deyir ki, Zamiq adlı şəxslə Çeyrankeçməzə getməyə razılaşıblar:** "Mənim maşınımı aparıb Müşfiqabaddakı məscidin yaxınlığında qoyduq. Zamiq düşüb məscidə namaz qıldı. Dedi ki, bu məscidin də təmirinə kömək edəcəyik. Onun nömrəsinin sonu 666 olan "Mercedes"i ilə yola çıxdıq. Yolda ürəyini tutdu, özündən getdi. Ayılanda dedi ki, maşını sən sür. Başladı danışmağa ki, ağsaqqal dediyi digər qardaşı Mehman generaldır, o da "KQB"də işləyir. Bu işi də onun məsləhəti ilə yoluna qoyacaqlar, oranı təmir edəcəklər. Qəbiristanlığa çatanda gördüklərimdən dəhşətə gəldim. Dədə-babalarımızın kəllə sümükləri ortalıqda idi. Oradan



ƏRİZƏ

Möhtərəm Prezident!

Bu ərizə mən və aşağıda imzası olan qəsəbə sakinləri tərəfindən Sizə ünvanlanır.

Cənab Prezident!

Qobustan rayonu, Ceyrankeçməz qəsəbəsindəki qədim qəsəbə qəbirstanlığının avqust ayının 8-də dağıdılması barədə qəsəbə camaatı xəbər tutmuş və mənə məlumat vermişlər. Baş vermiş hadisə barədə Daxili İşlər Nazirliyinin 102 xidmətinə müraciət edilmişdir. Bu məsələdə bizə köməklik göstərilməsini Sizdən xahiş edir, əvvəlcədən minnətdarlığımızı bildiririk.

tarix: 31.08.2015

İmza: İ.Ə.Süleymanov



Azərbaycan Respublikasının Prezidenti
Zati-aliləri cənab İlham Əliyevə

Surəti: "Heydər Əliyev Fondu"nun Prezidenti, Azərbaycan Respublikasının birinci xanımı Mehriban xanım Əliyevaya

Surəti: Azərbaycan Respublikasının Baş naziri cənab Artur Rasi-zadəyə

Surəti: Azərbaycan Respublikası Milli Məclisinin sədri cənab Oqtay Əsədova

Surəti: Azərbaycan Respublikasının Baş Prokuroru cənab Zakir Qaralova

Surəti: Azərbaycan Respublikasının Milli təhlükəsizlik naziri cənab Eldar Mahmudova

Surəti: Azərbaycan Respublikasının Daxili işlər naziri cənab Ramil Usubova

Surəti: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri cənab Mübariz Qurbanlıya

Surəti: İnsan Hüquqları üzrə müvəkkil (Ombudsman) Elmira xanım Süleymanovaya

Şamaxı rayonunun Ceyrankeçməz qəsəbəsində doğulmuş, hazırda Binəqədi rayonu, İzlivnoy küçəsi, ev 171-də yaşayan və qeydiyyatda olan: Müşfiqabad qəsəbə məscidi dini icmasının sədri Süleymanov İlşad Əlseyran oğlu tərəfindən (tel: 070 960 30 29; 012 410 81 82)

çıxıb Ceyhun müəllimin yanına getdim. Zamiq maşında qaldı. Ceyhun müəllim dedi ki, cinayəti törədən Zamiqin özüdür. Polis rəisi dedi ki, necə bilirsiz elə də edin. Mən də onun yanından çıxıb icra başçısı Adil Məmmədovun yanına getdim. Ona qəbiristanlığın dağıdılması ilə bütün olanları danışdım. Dedi ki, adamlar qəbiristanlığı dağıtdıqlarını boyunlarına alırlarsa, oranı bərpa etsinlər. Qalan məsələləri də hüquq-mühafizə orqanı həll edər".

**İcma sədri deyir ki, növbəti gün Zamiq Hüseynov məscidə gəlib və özü ilə gətirdiyi pulu ona verib:** "2 min dollar pul gətirmişdi. Dedi ki, oranı siz özünüz fəhlə tapın, təmir etdirin. Belə qərara gəldik ki, oranı qardaşlıq qəbiristanlığı kimi düzəldək. Dedi ki, həftənin 2-ci günü qardaşı Mehmanla bir daha gələcək. Bundan sonra Zamiqin telefonlarına zəng çatmadı. Ona görə də Mərəzəyə Ceyhun müəllimin yanına getdim. Dedi ki, gözlə, bir məlumat verəcəyəm. Axşamüstü məni "QAİ" postunun yanında bir kafeyə çağırdı. Orada MTN-in Qobustan şöbəsinin sədri Əfqan Məmmədov və Zamiq Hüseynov da vardı. Söhbətə başlayanda Zamiq Hüseynov kabinetdən qovdular. Dedilər ki, səhəri gün Əfqan Məmmədov mənə zəng edib gedib oranı düzəldəcəklər. Səhəri Əfqan Məmmədov mənə zəng eləmədi. Sonra Zamiq Hüseynov zəng elədi. Dedi ki, "Kəmalə Nərmin" şadlıq evinin arxasına gəl, pulu da gətir. Ora getdim, Zamiq Hüseynov pulu istədi, dedi ki, qardaşımın orada başqa fikri var. Pulu aldı və dedi ki, səni bir günə salaram ki, ölənlərin qalar, dirilərini ağlayarlar. Məni hədələdi, təhqir etdi".

**İ.Süleymanov deyir ki, bundan sonra şikayətlərin əsassız olduğunu anlayıb:** "Biz şikayət ərizəsi hazırlamışdıq. Amma qorxudan həmin şikayəti heç yana göndərməmişdik. Allah istədi, bu gün onların hamısını damlayıblar. Bundan sonra da yenidən gedib məlumat verdik. Bu gün məni MTN-ə çağırıblar, çox yüksək səviyyədə qəbul etdilər və bu işin hərtərəfli araşdırılacağını, cinayətdə əli olan bütün şəxslərin cəzalarını alacağını söylədilər".

**İcma sədri deyir ki, qəbirlər dağıdılandan sonra Qobustan Rayon İcra Hakimiyyətindən Qobustan Prokurorluğuna absurd bir arayış təqdim olunub:** "3 gün əvvəl məni prokurorun müavini Eldəniz müəllim qəbul etdi. Dedi ki, rayon icra hakimiyyətinin başçısı saxta arayış verib ki, burada guya qəbiristanlıq olmayıb. Xahiş edirik ki, bu məsələ hərtərəfli araşdırılsın. Necə yəni qəbiristanlıq olmayıb? Oradakı insan qalıqları kimindir?"

**❑ E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 255 (6283) 17 noyabr 2015

**Fransa kimi inkişaf etmiş bir Avropa ölkəsində terror baş verməsi bütün dünya üçün təəccüb doğuracaq hadisə kimi qiymətləndirilir. Amma maraqlısı odur ki, "terror" elə fransız sözü imiş. "Terror" digər dillərə fransız dilindəki "terreur" sözündən keçib. "Terreur" "qorxudan titrəmə" və ya "titrəməyə səbəb olma" mənası verir.**

# "Terror" fransız sözü imiş...

## Terrorun vətəni də Fransa sayılır

Mütəxəssislərin əksəriyyətinin gəldiyi qənaət budur ki, terror siyasi, dini, ideoloji, iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni zorakılığın, gücün, hədənin tətbiqi formasıdır.

Fransız izahlı lüğətində terror sözü "bir toplumda hər hansı qrupun xalqın dirənişini, mübarizə əzmini qırmaq üçün yaratdığı qorxu" mənasına gəlir.

Oksfordun İngilis dili lüğətində isə bu söz "Daha çox siyasi səbəblərlə xalqın gözünü qorxutmaq üçün dəhşət yaradan hadisələr törətmək" kimi izah edilir.

Ədəbiyyatda terror sözü bəzən siyasi məqsədlərlə törədilmiş dəhşətli hadisə, zorakılıq mənasında da işlədilir.

"Terror" sözü ilk dəfə fransız inqilabı dövründə yeni bir məna qazandı. Fransız inqilabının ilk illərində Fransa Konqresi, ölkənin xarici qüvvələr tərəfindən işğal edilməsi ilə bağlı narahatlıq keçirdikləri üçün ölkə daxilində vətəndaşların inqilaba zərər verə biləcəyini düşünüb fövqəladə tədbirlər görməyi vacib hesab edirlər. Bu məqsədlə ictimai təhlükəsizliyi təmin etməyə məsul olan komitənin səlahiyyətləri diktatorluğa qədər artırılır. 1793-cü il sentyabrın 5-də Konqres bir bəyanat yayaraq inqilab əleyhdarlarına qarşı terroru izah edir: "Sui-qəsd hazırlayan insanları qorxuya salmağın zamanı gəldi. Terroru başladın".

Bundan sonra o zaman Fransanın təhlükəsizlik komitəsinin rəhbəri sayılan Maksimilyan Robespiyer 1794-cü il 28 iyul tarixində diktatorluq cinayətləri üzündən edam edilənə qədər minlərlə adamın qətlinə fərman verib.

Tarixdə terror aləti sayılan gilyotini də 1738-ci ildə Fransada ixtisasca həkim olan İosif İqnak Giyotin ixtira etmişdi. 1789-cu ildə Fransa məclisinə üzv seçilən İ. İ. Giyotin ölkədə edamın vahid və "humanist" üsulla - ağrının minimuma endirilməsi üçün məhkumun başının boyun nahiyəsindən üzülməsi üsulu ilə keçirilməsini təklif edir. Təklif uzun müzakirələrdən sonra 1791-ci ildə qəbul edilərək Fransa Cinayət Məcəlləsinə daxil edilir.

Fransız inqilabı illəri "Terror gərginliyi" dövrü kimi xarakterizə edilirdi. Bu dövrdə Maksimilian Robespyer "Terrorun simvolu" sayılırdı və hökumətin ən güclü fiqurlarından biri kimi minlərlə insanın qətlinə imza atmışdı. Lakin elə Robespyer özü də 1794-cü ildə gilyotinin qurbanı oldu.

Lakin hazırda terrorun sərhədləri aşaraq bütün dünyanı təhdid edəcək həddə gəlməsi ölkələri beynəlxalq terrorizmlə qarşı-qarşıya qoydu. Ancaq son dövrdə istifadə edilən "beynəlxalq terrorizm" ifadəsi birdən çox ölkəni hədəfə alan və ya birdən çox ölkədə eyni anda bir-birinə yaxın hadisələr olan terrorizmi izah etmək üçün istifadə edilir.



Bəzi ölkələr terror təşkilatı kimi tanınan qruplaşmaların siyahısını nəşr edir. Bu siyahılar bəzi ölkələrdə hər il yenilənir.

ABŞ, Avropa Birliyi tərəfindən nəşr olunan siyahıdakı təşkilatlar dünya mediasında da terror təşkilatı kimi tanınır.

Belə bir fikir var ki, media, kütləvi informasiya vasitələri olmadan terrorizm yaşaya bilməz. Terrorizmin müasir dövrdə bu qədər geniş yayılmasında missioner medianın rolu da danılmazdır. Terror təşkilatları media sayəsində dəhşət saçır və cəmiyyətdə qorxu yayırlar...

Bəzi terror hadisələri isə dünyanın taleyini dəyişdi. 2001-ci ilin 11 sentyabrında Nyu Yorkda əkiz qüllələrin partladılması tarixdə baş verən terror aktlarının ən dəhşətlisi kimi yadda qaldı.

Bu terror aktları nəticəsində 2976 nəfər həlak olub, 6000 nəfər xəsarət alıb. Maddi ziyan isə 100 milyonlarla dollarla ölçülür. Dünya Ticarət Mərkəzinin təqribən 2 milyon tonluq uçqunlarının yaratdığı toz qatı 3 ay çəkilməyib. Ərimiş metal kütləsi binanın zirzəmisini doldurub. Ərazini təmizləmək üçün minlərlə insan 8 ay fasiləsiz işləyib. Bu terrora görə məsuliyyəti isə "Əl-Qaidə" terror təşkilatı öz üzərinə götürmüşdü.

Hazırda dünyada ən təhlükəli terror təşkilatlarının siyası belədir:

**İŞİD (DAEŞ)**
**PKK-Kürdistan Fəhlə Partiyası**
**Əl-Qaidə**
**Hizbullah**
**Taliban.**

Məşhur "Forbes" jurnalı son illərin ən çox gəlirə malik olan terror təşkilatlarının adlarını açıqlayıb. Məlum olub ki, siyahıda birinci yeri İŞİD (DAEŞ) tutur. Bu terror təşkilatının illik dövriyyəsi $ 2 milyard dollar, bəzi fikirlərə görə isə 3 milyard dollar təşkil edir.

İkinci yerdə illik 1 milyard dollarlıq gəliri ilə HƏMAS terror təşkilatı gəlir.

Üçüncü yerdə olan FARK - Kolumbiya İnqilabçı Silahlı Qüvvələri terror təşkilatının illik dövriyyəsi 600 milyon dollardır.

İllik gəlirlərinə görə "Hizbullah" terror təşkilatı dördüncü yerdədir və illik dövriyyəsi 500 milyon dollardır.

Adı beşinci yerdə olan "Taliban" terror qruplaşmasının illik dövriyyəsi 400 milyon dollar təşkil edir.

"Əl-Qaidə" 150 milyon dollar illik dövriyyəsi ilə altıncı, Pakistanın "Salehlər ordusu" 100 milyon dollar illik gəliri ilə yeddinci, Somalidəki "Əl Şəbab" terror təşkilatı 70 milyon dollarla səkkizinci, İrlandiya Respublika Ordusu radikal qruplaşması 60 milyon dollarlıq gəliri ilə doqquzuncu, illik dövriyyəsi 52 milyon dollar olan "Boko Haram" terror təşkilatı isə onuncu yerdədir.

Qeyd edək ki, bu terror təşkilatlarının əsas maliyyə qaynaqları ianələr, maliyyə yardımları, narkotik ticarəti, insan alveri, silah qaçaqmalçılığı və sairdir.

❑ **Nərgiz LİFTİYEVA**

# Azərbaycan Diplomatik Akademiyasında Fransadakı terror qurbanları anıldı

**Azərbaycan Diplomatik Akademiyasında (ADA) Fransada ötən şənbə baş vermiş qanlı terror aktlarının qurbanlarının anım tədbiri keçirilib. Musavat.com-un məlumatına görə, tədbir universitetin Tələbə Mərkəzi ("Student Center") binasında baş tutub.**





Universitetdə yaradılmış xüsusi guşədə gül və şamlar düzülüb, həmçinin Fransanın dövlət bayrağı asılıb.

Tədbiri çıxış sözü ilə universitetin prorektoru Fariz İsmayılzadə açıb. Ardınca fransalı tələbələr də çıxış ediblər. Onlardan tələbə qız İzabella bildirib: "Səhər terror xəbəri ilə oyandım. Terror xəbərini aldığım zaman yaşadığım hisləri söyləmək çox çətindir. Bunu heç birimizin yaşamağını arzu etmirəm. Fransa üçün universitetdə tələbələrin həmrəyliyini görmək çox gözəldir. Terrorizmin regional sərhədi yoxdur. Bugünkü terror aktı, sadəcə, Fransaya aid deyil. İnsanlığa qarşı edilmiş bir terror aktıdır. Biz fransızlar olaraq, Fransaya və dünyaya dua edirik".

**Fariz İsmayılzadə fransalı tələbəyə öz təşəkkürünü bildirib. Prorektor söyləyib ki, son bir neçə gündə terror xəbərləri, sadəcə, Fransadan deyil, dünyanın bir çox ölkələrindən gəlməkdə davam edir:** "Terror dinlə və ya milliyyətlə bağlı bir şey deyil. Bu, insanlığa qarşı törədilmiş bir aktdır. Bizim hər birimiz həmin situasiyada ola bilərdik. Həmçinin bizim universitetimizin tələbələri də Fransada "Exchange proqramı" üzrə təhsil alırlar ki, onların da başına belə bir faciəvi hadisə gələ bilərdi".

Ardınca o, tədbir iştirakçılarını, baş verən terror hadisəsi nəticəsində həyatlarını itirmiş şəxslərin xatirəsini bir dəqiqəlik sükutla anmağa çağırıb. Sonda isə prorektor tədbirə qatılan bütün iştirakçılara öz təşəkkürünü bildirib.

❑ **Əli RAİS**

# Olland: "Fransa İŞİD-in barbarlarına qarşı acımasız olacaq"

**Fransa səfirliyi ölkə prezidenti Fransua Ollandın 14 noyabr tarixində Müdafiə Şurasında keçirilən toplantıdan sonrakı açıqlamasını yayıb.**



Fransua Olland

**Səfirlikdən musavat.com-a verilən məlumatda bildirilir ki, prezident deyib:** "Əziz həmvətənlərim. Parisdə və Sen-Denidə baş verənlər bir müharibə aktıdır. Bu müharibəyə qarşı ölkə müvafiq qərarlar qəbul etməlidir. Bu, Fransaya və Fransanın bütün dünyada müdafiə etdiyi dəyərlərə qarşı, bütün dünyanın danışdığı kimliyimizə - azad ölkəmizə qarşı İŞİD terror ordusu tərəfindən törədilən bir müharibə aktıdır. Bu, daxili əlbirliyi ilə xaricdən hazırlanmış, təşkil olunmuş, planlaşdırılmış bir müharibə aktıdır. Bu əlbirliyi istintaq üzə çıxaracaqdır. Bu, tamamən bir barbarlıq aktıdır. Bu anda, 127 ölü və xeyli sayda yaralı var. Ailələr kədər və iztirab içindədirlər. Ölkə əzab içindədir. 3 günlük milli matəm elan edilmişdir. Vətəndaşlarımızı və torpaqlarımızı müdafiə etmək üçün bütün tədbirlər görülüb. Ehtiram göstərdiyim daxili təhlükəsizlik qüvvələri və ordu, imkanlarının ən yüksək səviyyələrində səfərbər olmuşdur. Mən bütün tədbirlərin gücləndirilməsinə nəzarət edirəm. Qorxaqcasına, biabırcasına və zorakılıqla hücuma məruz qalan Fransa İŞİD-in barbarlarına qarşı acımasız olacaq və müttəfiqlərin müşavirəsi ilə, bütün daxili və xarici meydanlarda, qanun çərçivəsinə müvafiq vasitələrlə hərəkət edəcək. Ölkəmiz üçün belə ağrılı, ciddi və həlledici bu dövrdə, soyuqqanlıqla, vahid birləşməyə çağırıram.

Mən bazar ertəsi Versay sarayında iclasa toplanan parlamentə müraciət edəcəm. Fransa güclüdür, hətta yaralı olsa da, o, həmişə ayağa qalxır. Kədər bizi mühasirəyə alsa da, heç nə onu yıxa bilməz. Fransa barbarlıq üzərində qələbə çalacaq. Bizim müdafiə etdiyimiz bizim vətənimiz, insanlıq dəyərlərimizdir. Fransa öz məsuliyyətini daşıyacaqdır. Yaşasın Respublika, Yaşasın Fransa".

❑ **M.MAHRIZLI**

YENİ MÜSAVAT
N 255 (6283) 17 noyabr 2015

# 27 il sonra Azadlıq meydanında - Nemət Pənahlının oğlu ilə...

## Orxan Pənahlı: "Mən də tutduğum yolda atam qədər qətiyyətli olacam"

**Bu gün Azərbaycanda milli azadlıq hərəkatının başlanmasından 27 il ötür. Tariximizə Milli Dirçəliş Günü kimi daxil olan bu günün unudulmaz qəhrəmanlarından haqq dünyasına qovuşanlar da, yaşayanlar da var. Hətta həbsxanada olan da...**

*Heç şübhəsiz ki, 1988-ci ilin bu gününü xatırlayan, düşünən hər kəsin ağlına gələn isimlərdən biri də hazırda Qobustan həbsxanasında cəza çəkən, Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlıdır. Artıq 5 ildir həbsxana həyatı yaşayan, bir vaxtlar milyonların səsi olan bu şəxs, bəlkə də indi hafizələrdən silinib. Amma onun bu şərəfli günlə bağlı xidmətləri danılmazdır.*

*Məlum səbəblərdən onun özü ilə söhbət edə bilməsək də, 19 yaşlı tələbə oğlu Orxan Pənahlı ilə o zaman hadisələrin cərəyan etdiyi Azadlıq meydanında, Nemət bəyin xalq qarşısında çıxış etdiyi yerdə bir söhbət etdik.*

***- Orxan bəy, bu meydan sizə nə deyir?***

- Xalqımız müstəqillik yolunda ilk addımlarını məhz bu meydanda atıb. Necə ki, atam o vaxt bu meydanı Kərbəla meydanına bənzətmişdi. Eynilə bu yer mənim üçün də Azərbaycan xalqının Kərbəla meydanıdır.

***- Nemət Pənahlı sizdən bir az yaşlı olanda, minlərlə insan üçün bir lider, mübarizə rəmzi idi. Sizi isə ancaq Nemət Pənahlının oğlu kimi tanıyırlar. Bu sizi incitmir ki?***

- Nemət Pənahlı 26 yaşında Azərbaycan Milli Azadlıq Hərəkatına liderlik edib və o mənim atamdır. Bunun nə dərəcədə qürurverici bir hiss olduğunu ancaq yaşayan bilər. Mənə gələndə isə hələ 19 yaşım var. Mənim də indidən vətənimlə bağlı müqəddəs arzularım var. Hesab edirəm ki, mən də tutduğum yolda onun qədər qətiyyətli olacam. Çünki Nemət Pənahlının oğluyam. Gün gələr, Allahın təqdiri ilə öz sözümü deyərəm. Amma Nemət Pənahlının təqlidçisi olaraq yox. O, üstündə dövlət qurulmuş böyük bir iz açıb, onun açdığı izə şərik olmaq fikrim yoxdur, mən də öz izimi açaram. Şəxsiyyəti tarixi proseslər meydana çıxarır. Baxın, bu gün Təbrizdə Milli Azadlıq Hərəkatının ilk qığılcımları özünü göstərir. Təbii ki, bu tarixi proses ona rəhbərlik edəcək bir milli lider ortaya çıxaracaq. Bunun olmaması mümkün deyil. Nə qədər uzun zaman keçmiş olsa da, hesab edirəm ki, bu gün Təbrizdə qaynayan olaylar da öz mənbəyini məhz 1988-ci il hərəkatından alıb. Çünki dəqiq bildiyim bir fakt var ki, Güney Azərbaycanda yaşayan azərbaycanlıların demək olar ki, əksəriyyətinin evində meydan hərəkatını əks etdirən videolentlər saxlanılır.

***- Nemət bəyə cəmiyyətdə münasibət birmənalı deyil. Keçmiş əqidədaşları ona Gəncə qiyamında iştirakını bağışlaya bilmirlər. Siz bu barədə nə düşünürsünüz?***

- Dünyada səhvsiz insan yoxdur. Yanlış etməmək yalnız Allaha məxsusdur. Atam siyasi səhnəyə gələndə mən heç dünyada olmamışam. Bəlkə də bu haqda fikir söyləməyim o qədər də doğru olmaz. Amma onun dilindən eşitdiklərimə əsasən, müəyyən şeyləri deyə bilərəm. Atamı etdiyi yanlışlarla, doğrularla bərabər belə bir insan kimi tanıyıram, saf niyyətli, əqidəsinə sadiq, heç nəyi və heç kimi vətən və millət sevgisindən üstün tutmayan bir insan. Cəsarətlə deyə bilərəm ki, keçmiş əqidədaşları onun qədər vətən sevgisində əqidəsinə sadiq olmayıb. Düzdür, hamısını demək doğru olmaz, amma atam bütün bu prosesləri mənə danışdığına görə müəyyən şeyləri dəqiq bilirəm. O ki qaldı Gəncə qiyamına. Başa düşürəm ki, siz burada birbaşa Heydər Əliyevin hakimiyyətə gətirilməsində atamın iştirakını nəzərdə tutursunuz. Bunun da nə dərəcədə doğru və yanlış olduğunu deyə bilmərəm. Bilmək olmaz başqa cür olsaydı, müstəqilliyini yenicə qazanmış Azərbaycanın aqibəti necə olardı. Hakimiyyəti müdafiə etmirəm. Ən azı ona görə ki, atam 5 ildir ki, həbsdədir və biz ailəlikcə nələr çəkmişik. Sadəcə, hər sözün düzünü demək lazımdır. 25 ildir ki, Azərbaycan müstəqildir və müstəqilliyi qorunub saxlanmaqdadır. Məncə, təkcə buna görə atamın xidmətlərinə birmənalı şəkildə baxmaq olmaz. Atam nə edibsə, vətəni və milləti üçün bunun daha xeyirli olduğunu düşündüyü üçün edib. Yanlışmı düşünüb, doğrumu, fərq etməz. O ki qaldı ondan incik düşən silahdaşlarına, bilmək olmaz ki, onun silahdaşları ona qarşı hansı yanlışlıqları ediblər. Bu da tarixin bir səhifəsidir və bütün bunlar da atamın "Əbədiyyət yolçusu" adlı kitabında əks olunmaqdadır. Təkcə bir fakt kifayət edir ki, onun əqidə yoldaşlarından bir çoxları bu gün vəzifələrdə, millət vəkili kürsülərində və ən azı azadlıqdadırlar. Nemət Pənahlı isə sovet imperiyasının dönəmində də zindanda olub, hətta Cəbhə hakimiyyəti dövründə də, bu gün də. Mən buna necə ədalətsizlik deməyim?



**"Atam sovet imperiyasının dönəmində də zindanda olub, hətta Cəbhə hakimiyyəti dövründə də, bu gün də..."**

***- Atanızın siyasətdə olan dostlarından kimlər sizlə əlaqə saxlayırlar? Gəlirlərmi sizə?***

- Xeyr, demək olar ki, heç kim. Ümumiyyətlə, bizim evə atam həbs olunandan sonra demək olar ki, gəlib-gedən yoxdur. Qohum-qardaşın, dost-tanışın hər gün gəldiyi evimizdə bu gün özümüzdən başqa kimsə yoxdur. Amma bu məni o qədər də təəccübləndirmir. Çünki dünya yaranan bir gündən insanın etibarı belə olub. Tək-tük insan olar ki, dostluğa, yoldaşlığa sadiq olsun. Amma həzm edə bilmədiyim tək şey bu meydanda söz verən millətin etibarsızlığıdır. "Biz ölərik, Neməti tək qoymarıq" deyən millətə atam bütün gəncliyini fəda edib. Hanı bəs o millət ki, bu gün Nemət Pənahlının özü də, ailəsi də tək qalıb.



**"Bu gün Nemət Pənahlının özü də, ailəsi də tək qalıb"**



***- Nemət Pənahlının oğlu olmaq çətindirmi?***

- Nemət Pənahlının oğlu olmaq hər şeydən daha çox qürurvericidir. Bəlkə də həyatda ən böyük şansım məhz Nemət Pənahlının oğlu olmağımdır. Təbii ki, bunun çətin tərəfləri də çoxdur. Ağlım kəsəndən atamın tutduğu yola görə həyəcan, iztirab çəkmişik. Amma bilirəm ki, bu daha çox mənə Allahın imtahanıdır. Yenə də deyirəm ki, qürurverici və çox xoş bir imtahandır. Və əsas məsələ də odur ki, mən bu imtahandan necə çıxacam. Nemət Pənahlının oğlu olmağım həyat mübarizəmi artırıb. Və bu mənə zövq verir. Çünki başa düşürəm ki, atam həyatda nə zillət çəkibsə, öz dərdindən yox, xalqının, millətinin dərdindən çəkib və mən belə bir çətinliyin milyon qatına sevə-sevə razıyam.

***- Siyasətlə maraqlanırsınızmı? Atanızdan başqa hansı siyasətçiyə rəğbətiniz var?***

- Düzünü deyim ki, yox. Siyasət bizim ölkədə yürüdülən bir şey deyil. Siyasəti öz ölkəmdə necə görmüşəmsə, belə deyim ki, sevməmişəm. Siyasət mənə həmişə hiylə, çirkinlik dolu, paklıqdan uzaq kimi gəlib. Yolum mübarizə, savaşdır. Həmişə bacardığımı bu cür etmək, vətənimə bu cür yararlı olmaq istəmişəm. Həyatda ən böyük arzum, hələ lap uşaqlıqdan canımı vətənim üçün qurban verməkdir, son nəfəsimə kimi bu vətənin bütövlüyü uğrunda canımı, gücümü qoymaq və sonda müqəddəs Şəhidlər Xiyabanında uyumaq olub. Bunu özümdən asılı olmayaraq həmişə arzulamışam. Nə qəhrəman olmaq, nə də cənnəti qazanmaq üçün arzulamamışam. Səbrsizliklə o günü gözləyirəm. Bu həm qanımdadır, həm də aldığım tərbiyədən irəli gəlir. Bu da bir növ Nemət Pənahlının xidmətidir....

Əslində atamın da siz deyən səhvləri onun təmiz niyyətli bir insan olmasından, bu ölkədə aparılan siyasi oyunlarla niyyətinin, düşüncəsinin qəti uyğun gəlməməsindən irəli gəlib. O həmişə deyir ki, mən o meydanda millətin önünə çıxanda, ağlıma da gətirməmişdim ki, milli azadlıq kimi müqəddəs bir hərəkata kimsə şəxsi nəfsi, şəxsi niyyəti üçün gələ bilər.

***- İdmançısınız. İdman mənəvi kamillik yoludur, yoxsa əzələ gücünün artırılmasında vasitə?***

- Məncə, əgər bir bədənin üstündə düşünə bilən bir baş yoxdursa, o bədənin enli çiyinlərinin heç bir mahiyyəti də yoxdur. Ona görə də ilk növbədə, insan üçün kamillik önəmlidir. Fiziki hazırlıq bütün kişilər üçün önəmlidir. Çünki ən azı insan istənilən şəraitə düşə bilər və istənilən situasiyadan da çıxmağı bacarmalıdır. Bundan daha önəmlisi isə istənilən anda vətənini qoruya bilmək üçün kişiyə fiziki hazırlıq lazımdır. Ancaq bir daha deyirəm ki, kamil insan olmadan da fiziki hazırlıq bir işə yaramır. Mükəmməl insan olmaq üçün bunların hər ikisi insanda birləşməlidir. Bəzən baxırsan ki, kiçik cüssəli liderləri nəhəng gövdəli mühafizəkarlar qoruyur. Kənardan hər ikisinin yarımçıq olduğu görünür. Bunun hər ikisi bir insanda birləşəndə isə daha mükəmməl olur.

***- Nemət bəy şeir yazır, saz çalır. Sizdə də belə keyfiyyətlər varmı?***

- Şeir yazmıram, amma hiss edirəm ki, mənim də ruhum şairlik təbinə yaxındır və nə zamansa bu istedad mənə də veriləcək. Sözsüz ki, bu, sadəcə hissiyyatımdır. Saz çalmağı bacarmıram. Amma dinləməyi çox sevirəm. Çünki saz türkün ruh alətidir.

***- Bu ölkədən çıxıb getmək heç ağlınızdan keçibmi?***

- Qətiyyən. Mən qaçmağı bir türkə heç vaxt yaraşdırmamışam. Öz ölkəndə yaşadıqların hər nə olursa-olsun, savaş, vuruş son nəfəsinə kimi, ən pis halda döz, amma dönüb getmə.

***- Necə dolanırsınız? Gənc, güclü, ailəni dolandırmaq yaşında olan adamsınız. Çörəkpulunu hansı fəaliyyətlə qazanırsınız?***

- Hazırda tələbəyəm. 3-cü kursda oxuyuram. Müəyyən müddət mühafizəçi işləmişəm. Amma tələbəliklə bu mümkün olmayıb. Tanışlar işə düzəldə bilsələr də, müəyyən müddətdən sonra əsgərlik keçmədiyimi bilib, işdən azad ediblər. Hətta düzünü deyim ki, fəhləlik elədiyim də olub. Atam həbs olunanda 13 yaşım var idi. İndi artıq 19 yaşındayam. Sözsüz ki, maddi çətinliklərimiz olub. Amma bu da bir sınaqdır.

***- Nemət bəy inanclı bir insandır. Siz ibadət edirsiniz?***

- Sözsüz ki. Bütünlükdə atamın soykökü iman sahibləri olublar. Sovet hakimiyyətinin təzyiqi altında belə babam 12 yaşından ibadət edib. Eləcə də atam və biz. Bütünlükdə ailəmiz dinini yaşayan bir ailədir və mən də hazırda ibadət yolundayam.

***- Atanızın hansı fikirlərini bölüşmürsünüz? Onunla mübahisə edirsinizmi?***

- Mübahisə deməzdim, amma bəzən elə hallar olur ki, anlamaqda çətinlik çəkirəm. Atam bu mövzuda səbrlidir. Yəni bezmədən, usanmadan saatlarla anladar. Amma mən bir şeyi həmişə beynimdə ciddi şəkildə saxlayıram ki, atam 26 yaşında vətəninin tarixində sözünü demiş adamdır. Mənim o mərtəbəyə gəlməyimə hələ çox var. Əgər o bir sözü deyirsə, demək ki, bir bildiyi var. Onunla həmişə razılaşmağa çalışıram. Çünki atam demək olar ki, idealımdır.

***- Nemət bəy evdə necə insandır?***

- Nəinki ata, bir ailə başçısı kimi atam mükəmməl bir insandır. Onun insanlığı haqda nə qədər danışsam da bitib- tükənməz. Beş ildir ki, həbsdədir. Bu gün o, həftədə iki dəfə evi ilə telefon əlaqəsi saxlaya bilir. Cəmi 5 ya 10 dəqiqə danışa bilir. Amma inanın ki, hər birimizə o 5-10 dəqiqədə yer var, o müddətdə bütün problemlərimizlə maraqlanır, məsləhətlərini verir, ən azından mənəvi dəstək olur. Biz onun yoxluğunu ancaq fiziki, maddi mənada hiss eləmişik. Bu da ondan asılı olan bir şey deyil. Mənəvi cəhətdən o həmişə bizimlədir. Məsləhətləri, sözləri mənim üçün o qədər dəyərlidir ki, yeri gələndə dost, yeri gələndə sirdaş, yeri də gələndə sərt bir ata kimi. 15-16 yaşlarında istər-istəməz oğlanlarda yolunu azmaq həvəsi olur. O ərəfələrdə atamla danışanda mənə həmişə deyirdi ki, Orxan, birdən yolunu azmaq, harama əl uzatmaq, yanlış yollara girmək həvəsinə düşərsən, o anda bircə şeyi düşün, əxlaqı olmayanın əxlaqlı ailəsi olmur. Bu söz kişilik qüruruma o qədər ağır gəlirdi ki, istər-istəməz hər dəqiqə, hər an bunu ağlıma rəhbər tuturdum. Və ya bayırda olanda həmişə mənə qorxmağı öyrədib. Bayırda döyülməkdən qorxmamışam, bayırda döyüləcəyim təqdirdə evə gəlib, evdə döyüləcəyimdən qorxmuşam. Atamın bir sözü var, onu həmişə dörd oğluna dönə-dönə deyir: "Bütün namərdliklər, satqınlıqlar qorxudan törəyir. Qorxusuz insan nə namərd olmaz, nə də satqın".

***- Bəlkə Nemət bəy heç siyasətlə məşğul olmasın, ailəsinə vaxt ayırsın?***

- Atam həmişə bizə belə məsləhət verir: "Mənim evim, uşağım, ailəm", bunu istənilən kişi düşünə bilər. "Mənim vətənim, millətim, xalqım" deyə düşünmək lazımdır. Ailən də onun içindədir, övladın da". Mən onun bu baxışı önündə baş əyirəm. Mənim üçün də belədir. Əminəm ki, hamımız üçün də belə olacaq. Odur ki, onun tutduğu yola hörmətim böyükdür.

❑ **Cavanşir ABBASLI**
**Fotolar Məğrur SALMANOVUNDUR**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 255 (6283) 17 noyabr 2015

**Dağlıq Qarabağ məsələsinin ədalətli həlli şübhə yox ki, ilk növbədə konflikt ətrafında gedən informasiya savaşının nəticəsindən asılı olacaq. Bu nəticəyə isə beynəlxalq təşkilatların probleminin həllinə baxışları indi də olmasa, gec-tez öz mühüm təsirini göstərəcək.**

**Söhbət BMT ilə yanaşı, AŞ PA, Avropa Birliyi, İslam Əməkdaşlıq Təşkilatının erməni işğalı ilə bağlı qəbul elədiyi qərar-qətnamələrdən gedir. Nə yaxşı ki, onların sayı tədricən artmaqdadır - hələlik həlledici önəm verilməsə də.**




# Ermənistan Strasburq zərbəsindən özünə gələ bilmir

## AŞ PA-nın Qarabağa dair ədalətli qətnaməsindən sonra işğalçı ölkədə siyasi mübahisələr və qarşılıqlı ittihamlar səngimir; **rusiyalı politoloq:** "Konfliktin həlli SSRİ-nin bərpasından sonra mümkündür"; Türkiyə Quru Qoşunlarının komandanı Bakıya gəlir...

Düşmən ölkəni son zamanlar ən çox narahat edən də budur - Dağlıq Qarabağ məsələsində Azərbaycanın təbliğati-diplomatik uğurlarının çoxalması.

******

Bu arada məlum olub ki, Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Siyasi Komitəsində bir neçə gün öncə qəbul edilən "Dağlıq Qarabağda və Azərbaycanın işğal edilmiş digər ərazilərində toqquşmaların artması barədə" başlıqlı qətnaməyə görə işğalçı Ermənistanda mübahisələr səngimir (Virtualaz.org). Ermənistanın AŞ PA-dakı nümayəndə heyətinin bu qətnamənin qəbulunun qarşısını ala bilməməsi parlamentin dünənki iclasında da qaldırılıb.

**Belə ki, müxalifətdən olan deputat Nikol Paşinyan deyib ki, ictimaiyyət Ermənistan nümayəndə heyətinin AŞ PA-dakı fəaliyyətinə dair obyektiv qiymətləndirmə görmək istəyir.** "Ən təhlükəlisi odur ki, biz hər dəfə öz diplomatik uğursuzluqlarımızı Bakının "qara kürü" diplomatiyası ilə əsaslandırmağa çalışırıq. Əgər kürü belə böyük və ciddi qüvvədirsə, gəlin fikirləşək: bəlkə ora bizim nümayəndə heyətini göndərmək əvəzinə bir neçə kiloqram qara kürü alıb göndərsək, daha yaxşıdır?!"- deyə Nikol Paşinyan istehzalı şəkildə sual edib.

**Parlamentin spikeri Qalust Saakyan isə bu uğursuzluğa görə günahkar axtarmamağa, AŞ PA-nın qış sessiyasında həmin qətnamənin qəbulunun qarşısını almaq üçün hamını səfərbər olmağa çağırıb.** "Biz hələ bir il əvvəl bu sənəd haqda məlumat almışdıq və müxtəlif nümayəndə heyətləri ilə təmaslarımızda məsələni qaldırırdıq. Lakin nəzərə almalıyıq ki, indiki halda biz AŞ PA ilə yox, Azərbaycan və Türkiyə ilə qarşı-qarşıyayıq" - spiker deyib. O, qətnamənin təsdiqlənməsinin Ermənistanın ciddi uğursuzluğu olduğunu etiraf edib.

Xatırladaq ki, həmin qətnamədə Dağlıq Qarabağ və ətraf ərazilərin Ermənistan tərəfindən işğal edildiyi tanınır. Sənədin qəbulu Ermənistanda panik reaksiyalara səbəb olub. Ermənistan XİN rəsmiləri öncə bunu sıradan bir sənəd kimi təqdim eləməyə, "Qarabağ məsələsi ATƏT-in Minsk Qrupunun missiyasına daxildir, başqa təşkilatların yox" deyib özlərini sakitləşdirməyə və amerikalı həmsədr Ceyms Uorlikin bu yöndə oxşar açıqlaması ilə təskinlik tapmağa çalışsa da, fakt-faktlığında qalır ki, Strasburqdakı sənədlə işğalçı tərəf sanballı zərbə alıb və AŞ PA-nın qış sessiyasında bunun davamı gözlənilir.

*****

Sözsüz ki, bu cür obyektiv və beynəlxalq hüquqa söykənən sənəd-qətnamələrin artması təcavüzkarın dünyadakı mövqeyini zəiflədir və istər-istəməz konfliktin beynəlxalq hüquq normaları, BMT-nin Qarabağa dair məlum qətnamələri əsasında həlli zərurətini gücləndirir, məhz bu müstəvidə nizamlama üçün zəmini genişləndirir. Hərçənd münaqişənin həll perspektivinə fərqli, skeptik baxışlara malik olanlar da var.

"Ümid edirəm ki, Dağlıq Qarabağ münaqişəsinin donu açılmayacaq. Çünki mən anlaya bilmirəm ki, hansı yolla Qarabağ Azərbaycan tərəfindən tanına bilər. Bu, həll oluna bilən problem deyil. Təcrübə də göstərir ki, ən yaxşısı, belə problemlərə toxunmamaqdır. Bu, sadəcə, qismətdir. Bəlkə də 100-300 ildən sonra nəsə dəyişəcək, ancaq hələlik heyisə dəyişmək mümkün deyil". Bu fikri **"Yaxın Şərq İnstitutu" müstəqil elmi mərkəzinin direktoru Yevgeni Satanovski** minval.az saytına müsahibəsində bildirib.

Onda belə çıxmır ki, hazırda konfliktin həll rıçaqları yoxdur?

**Ekspertin suala cavabı maraqlıdır:** "Konflikt yalnız SSRİ-nin təzədən zühur eləməsi halında həllini tapa bilər. Hətta SSRİ də olmasa, istənilən imperiyanı... təsəvvürə gətirmək olar. Bu qəbildən münaqişələr nizamlana bilər, əgər ərazini bilavasitə gündəlik rejimdə idarə edən xarici arbitr mövcuddursa".

**Politoloq Dağlıq Qarabağ və postsovet məkanındakı digər həll olunmamış münaqişələrə görə SSRİ-nin sonuncu rəhbəri Mixail Qorbaçovu günahlandırır:** "Mən əminəm ki, Dağlıq Qarabağ münaqişəsi Gürcüstandakı Abxaziya və Cənubi Osetiya konfliktləri kimi SSRİ-nin paytaxtı, qəhrəman-şəhər Moskvada, Mixail Qorbaçov dönəmindəki "eybəcərlər" tərəfindən partladılıb. Mixail Sergeyeviç köhnə Stalin mexanizmlərindən istifadə eləməyi qərarlaşdırmışdı. Ancaq o başa düşmürdü ki, həmin mexanizmlər artıq köhnəlib və işə yaramır. Və nəticədə belə alındı ki, "cini şüşədən buraxdılar", amma içəri sala bilmirlər, elə şüşənin ağzını bağlamaq da hələ ki mümkün deyil".

*****



Salih Zeki Çolak

Əlbəttə ki, Qarabağ ixtilafını ermənilərin əli ilə məhz Moskva qızışdırıb. Əfsus ki, onun həllinə mane olan əsas qüvvə də yenə Moskvadır. Lakin bu, o demək deyil ki, münaqişə deyildiyi kimi, 100-300 il çəkəcək yaxud SSRİ təzədən "zühur edəndən" sonra nizamlanacaq. SSRİ bir daha dirilməyəcək, bunu Rusiyada da yaxşı bilirlər. Həmçinin rəsmi Kremlin məsələdə tormozlayıcı rolu aydındır ki, həmişə indiki kimi qalmayacaq, azalacaq.

İndilikdə isə Azərbaycan yəqin ki, özünün Qarabağ diplomatiyasını gücləndirməklə yanaşı, iqtisadi-hərbi qüdrətini artırmaq yönündə səylərini gücləndirəcək. Bu istiqamətdə bizim əsas müttəfiqimiz isə təbii ki, qardaş Türkiyədədir.

Axır vaxtlar iki qardaş ölkə arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi, o sırada ortaq təlimlərin kəmiyyət və keyfiyyətcə intensivləşməsi bu xüsusda qürurverici və ümudverici olmaqla yanaşı, nə vaxtsa Qarabağ probleminin milli maraqlarımız çərçivəsində həllinə inamı da artırır.

Söz düşmüşkən, bu gün Türkiyə Quru Qoşunlarının komandanı, ordu generalı Salih Zeki Çolak Azərbaycana səfərə gəlir. Ali qonaq elə bu gündən rəsmi görüşlərə başlayacaq. Üç günlük səfər zamanı Çolak Azərbaycan Müdafiə Nazirliyinin rəhbərliyi və bir sıra digər rəsmiləri ilə görüşlər keçirəcək.

Qeyd edək ki, S.Z.Çolak Türkiyənin quru qoşunların komandanı vəzifəsinə avqustun 5-də təyin olunub. Bundan öncə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi böyük bir nümayəndə heyəti ilə Bakıda olmuş, Azərbaycanın siyasi və hərbi rəhbərliyi ilə görüşmüşdü. Bu səfərlər əlbəttə ki, Azərbaycanın gücünə güc qatır, onu təcavüzkar Ermənistan və onun havadarları qarşısında daha inamlı edir.

## Azərbaycan hərbi gücünə görə Ermənistandan xeyli irəlidir - hesabat



**"Global Firepower" hərbi gücünə görə dünya ölkələrinin növbəti reytinq siyahısını açıqlayıb. "Report" xəbər verir ki, bu barədə təşkilatın saytında bildirilib. Azərbaycan 126 dövlət arasında 64-cü yerdədir. Ölkəmizin hərbi büdcəsi 3 milyard dollardan artıqdır. Türkiyə bu siyahıda 10-cu, Ermənistan 74-cü, Gürcüstan 75-ci yerdədir. İlk üç yeri isə ABŞ, Rusiya və Çin tutur.**

Qeyd edək ki, reytinqin müəyyənləşdirilməsində 50-dən çox amil, o cümlədən hərbi texnikanın sayı, insan resursları, müdafiə xərcləri, infrastruktur miqyası nəzərə alınır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Xırdalanda ana və övladını qatar vurdu



**Azərbaycanda elektrovoz ana və övladını vurub. Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) rəsmi saytı məlumat yayıb. Belə ki, Xırdalan dəmir yolu stansiyasının ərazisində elektrovozla şəhər sakinləri Əfsanə Məmmədova və oğlu Fuad vurulub. Onlar xəstəxanaya yerləşdiriliblər. Faktla bağlı araşdırma aparılır.**



# Güclü külək, yağış və qar gözlənilir

**Noyabrın 17-də Bakı və Abşeron yarımadasının bəzi yerlərində yağış yağacağı, gün ərzində havanın dəyişkən buludlu olacağı gözlənilir. Musavat.com Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, arabir güclənən cənub-qərb küləyi günün ikinci yarısında güclü şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu Abşeron yarımadasında gecə 7-10, gündüz 12-15, Bakıda gecə 8-10, gündüz 13-15 dərəcə isti olacaq.

Azərbaycanın bəzi rayonlarında noyabrın 17-də yağış yağacağı, duman olacağı gözlənilir. Lənkəran-Astara zonasında intensiv olacağı, dağlıq ərazilərdə sulu qara, qara keçəcəyi ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu Aran rayonlarında gecə 3-8, gündüz 13-18, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 8-13 dərəcə isti olacaq.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# Yol polisi Gəncədə reyd keçirdi: 100-ə yaxın sürücü cərimələndi

**Gəncə Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsi əməkdaşları yol hərəkəti qaydalarını pozan sürücülərə qarşı reyd keçirib. "Report"un məlumatına görə, reyd əsasən avtomobili sərxoş halda və ya sənədsiz idarəetmə, avtomobillərin konstruksiyasında qanunsuz dəyişikliyə yol vermə, əlavə səs siqnalları, işıqlar, eyni zamanda görməni məhdudlaşdıran pərdə və plyonkalardan istifadə hallarına qarşı təşkil olunub.**

Şəhərin Nizami və Atatürk prospektlərində keçirilən reyd zamanı qeyd olunan qayda pozuntularına yol verən 100-ə yaxın sürücü aşkar edilib. Saxlanılan sürücülər yerində cərimə olunub və 12 nəqliyyat vasitəsinin istismarı dayandırılaraq cərimə meydançasına aparılıb.

Avtomobillərdə pərdə və plyonkalardan istifadəyə icazə müddəti başa çatdığından yol polisi əməkdaşları bu qaydaya əməl etməyən sürücülərə qarşı reydləri davam etdirəcək.

Xatırladaq ki, qaydalara uyğun olaraq nəqliyyat vasitələrində pərdə və plyonkalardan istifadə müddəti mayın 1-dən noyabrın 15-nə kimi idi.

# Bakıda qadına qarşı 240 min dollarlıq dələduzluq



**Bakı sakini külli miqdarda vəsaitinin mənimsənilməsi ilə bağlı hüquq-mühafizə orqanlarına müraciət edib. Lent.az-ın məlumatına görə, Tünzalə Əliyeva adlı qadın bildirib ki, Nəsimi rayonu Quliyev küçəsində tikilən çoxmərtəbəli binada mənzil almaq məqsədi ilə həmin ərazidə tikinti aparan şirkətin rəhbərlərindən olan İlkin adlı şəxsə 239 840 dollar pul verib.**

Həmin şəxs bu pulun qarşılığında Tünzalə Əliyevaya 3 ədəd ikiotaqlı mənzil təqdim etməli olsa da, vədinə əməl etməyib və vəsaiti mənimsəyib. Tünzalə Əliyeva məsələnin qanun çərçivəsində həll edilməsini xahiş edib. Müraciət əsasında araşdırma aparılır.

# Bakı polisi axtarışda olan iki nəfəri tutdu

**Paytaxtda dələduzluq maddəsi ilə axtarışda olan iki nəfər saxlanılıb. Virtualaz.org Bakı Şəhər Baş Polis İdarəsinə istinadən bildirir ki, Sabunçu RPİ 15-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində, AR CM-in 178-ci (dələduzluq) maddəsi ilə axtarışda olan 1982-ci il təvəllüdlü Amil Şahməmmədov tutulub.**

Bundan başqa, Xətai RPİ 37-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində, AR CM-in 178-ci (dələduzluq) maddəsi ilə axtarışda olan 1989-cu il təvəllüdlü Məhəmməd Quliyev də saxlanılıb.


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34




# Bu uşağın köməyə ehtiyacı var

**Həsənli Zamin Səhət oğlu. 20 dekabr 2003-cü ildə Yardımlı rayonunda anadan olub. 2014-cü il dekabr ayında Milli Onkologiya Mərkəzində ona kəskin leykoz (limfoblastik variant) diaqnozu qoyulub. Zamin orada əməliyyat edilib (Valideynlərinin maddi imkansızlığından əməliyyat pulsuz olunub).**

21.01.2015-ci il tarixə qədər Milli Onkologiya Mərkəzi və Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Uşaq şöbəsində stasionar müalicə alıb. Zamingil Bakıda kirayədə qalır, atası Səhət fəhləlik edir, anası isə xəstə övladına baxır. Hazırda Zamin evdədir, bir ilə yaxındır ki, məktəbə gedə bilmir.

O, hər həftə xəstəliyi ilə əlaqədar analizlər verir, hər gün dərmanlar qəbul edir. Ona vaxtaşırı iynə də vurulur. Bütün bunlar ayda təxminən 1000 manata başa gəlir. Həkimlər bildirib ki, Zaminin müalicəsi azı 2016-cı ilin dekabr ayınadək davam etməlidir. Əks halda, uşağın həyatı təhlükəyə düşəcək.

Zaminin valideynləri yeganə övladlarının həyata qaytarılmasına yardımçı ola biləcək xeyirxah insanlara müraciət edir. Onun müalicəsinə maliyyə yardımı göstərilməsi üçün Azərbaycan Beynəlxalq Bankında anası Aidə Nəbiyevanın adına hesablar açılıb.

**Hesabları aşağıda diqqətinizə çatdırırıq.**
**Lütfən köməyinizi əsirgəməyin!**
**Əlaqə telefonu: (050) 979 52 96; (055) 432 74 07**
**AZN ödəmək üçün:**
**Alan müştərinin adı: Aidə Nəbiyeva Atduxan qızı**
**Alan müştərinin hesab nömrəsi, IBAN: AZ70IBAZ33881019442019455205**
**Alan bank: "Azərbaycan Beynəlxalq Bankı" Nəqliyyat filialı Alan bankın Swift codu (Swift code): IBAZAZ2X Alan bankın müxbir hesabı: AZ03NABZ01350100000000002944**



# Bakı sakini bıçaqlandı

**Bakıda 18 yaşlı oğlan 29 yaşlı gənci bıçaqlayıb. Bakı Şəhər Baş Polis İdarəsinin (BŞBPİ) mətbuat xidmətindən "Report"a verilən məlumata görə, Sabunçu Rayon Polis İdarəsinin (RPİ) 15-ci Polis Bölməsi (PB) əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində, Pirşağı qəsəbəsi H.Əliyev küçəsində 1986-cı il təvəllüdlü Əliabbas Allahverdiyevə bıçaq xəsarəti yetirməkdə şübhəli bilinən Bakı şəhər sakini, 1997-ci il təvəllüdlü Tural Yusifov tutulub. Faktla bağlı araşdırmalar davam etdirilir.**

## Başsağlığı

Dilarə Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətinin kollektivi tanınmış hüquq müdafiəçisi Elçin Behbudovun vəfatından kədələndiyini bildirir, ailəsinə dərin hüznlə başsağlığı verir.

***

Dilarə Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətinin kollektivi Başxanım Abbasovaya bacısı Zəhrəbəyim xanımın vəfatından kədələndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

YENİ MÜSAVAT
N 255 (6283) 17 noyabr 2015

# "Sovetski" oğruların oylağına çevrilib

## Söküntülərdən sonra ərazidə oğurluqların sayı xeyli artıb...

**Bir zamanlar özünəməxsus qaydaları, "yazılmayan qanunları" ilə idarə olunan Bakının "Sovetski" kimi tanınan məhəlləsindən bu gün əsər-əlamət belə qalmayıb. Məhəllə kənardan sanki müharibədən sonrakı xarabalıqları xatırladır.**



Burada uçurulan evlərlə birlikdə, qeyd edildiyi kimi, adətlər-ənənələr də məhv olub. Bir zamanlar kənar şəxslərin girməyə belə cəsarət etmədiyi "Sovetski" dalanlarında bu gün oğrular "at oynadır".

Bu barədə musavat.com-a məhəllənin hələ orada yaşamağa davam edən sakinləri məlumat verdilər. Sakinlər bildirirlər ki, vəziyyət Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının arxası istiqamətində, məhəllənin söküntülər aparılan dalanlarında daha pisdir.

**"Sovetski" sakini Kərim Quliyevin sözlərinə görə, ətraf ərazidəki tikililər söküldükdən sonra məhəllədə oğruların da sayı artıb:** "Əvvəl belə şey olmazdı. İndi evlərin bir qismini tam, bir qismini də yarımçıq söküblər. Bəzi sakinlərin də başqa yerdə evləri olduğu üçün onlar burada qalmırlar. Həmçinin buradakı mənzillərini də sökməyə qoymurlar. Oğrular da baxırlar hansı evdə yaşayış yoxdur, girirlər ora. İndi orada yaşayırlar, ya oğurluq edirlər, bilinmir. Şəxsən mən qonşuluqdakı evdən iki yad adam tutmuşam. Gecə yarısı gəlib girirlər evə. Əvvəllər burada belə şey olmazdı. Hamı bir-birini tanıyırdı. Lap təzə gələn qonşular da getdikcə məhəllənin qayda-qanununa uyğunlaşırdı. Mənzillər söküldükdən sonra bura çox pis günə qaldı. Doğrudur, kommunal xətlərimizə dəyməyiblər. Ancaq buraları elə günə qoyublar ki, yaşamaq olmur. Azkvadratlı mənzil sahiblərinin əksəriyyəti pis vəziyyətdədir. Hökumət kvadrata 1500 manat pul verir. Nə köçə bilirik, nə də burada yaşamaq mümkündür artıq".

Digər sakin Ruslan Ağayev də eyni məsələdən narazıdır. Daha öncə də xəbər verdiyimiz kimi, Ruslan Ağayev oğruların qarşısını almaq üçün ikinci mərtəbəyə it də gətirib bağlayıb. Sakinlər başqa yollarının olmadığını bildiriblər.

**Məsələ ilə bağlı danışan sabiq polis rəisi Mahmud Hacıyev bildirdi ki, əvvəllər buradakı mühit doğrudan da başqa olub:** ""Sovetski" məhəlləsi hələ sovetlər dönəmində kriminal aləmdə ad çıxaranların yaşadığı yer idi. Eyni zamanda vaxtilə orada mənzillər bir-birinə yaxın, çox kiçik həyətlər formasında idi. Hazırda isə söküntü işlərinin aparılmasından sonra vəziyyət əvvəlki kimi deyil. Ona görə də güman ki, bir zamanlar "Sovetski" adına görə ora girməyən oğrular indi buna məhəl qoymurlar. Çünki sakinlərin bir hissəsi köçüb, məhəllə əvvəlki kimi deyil. Hazırda əraziyə baxan hüquq-mühafizə orqanlarının əməkdaşlarının üzərinə məsuliyyət düşür. Onlar öz işlərini planlı şəkildə qurmalıdırlar. Eyni zamanda mövcud coğrafi şəraiti də nəzərə almalıdırlar. Əslində bir məqam da var ki, oğurluq coğrafi şəraitdən bir o qədər də asılı deyil. Şəhərin mərkəzində də oğurluq hallarına rast gəlinir. Ancaq indi oradakı durum yuxarıda qeyd etdiyim səbəblərdən dolayı başqadır. Buna görə də nəzarət gücləndirilməlidir".





❑ **Əli RAİS**

# Kommunal sahələr qış rejiminə keçdi, amma...

## **Rafiq Əliyev:** "İstilik veriləcək, kimsə narahat olmasın"
## **İbrahim Kərbalayev:** "Ölkə ərazisində qazla bağlı heç bir məhdudiyyət yaşanmır"

**Noyabrın 15-dən etibarən qış rejiminə keçid edilsə də bir sıra kommunal xidmətlərdə problemlər yaşanır. Havalar soyuyar-soyumaz əhalinin daha çox qaza və istilik sistemlərinə tələbatı artır. "Azəriqaz ASC" artıq qış rejiminə keçdiyini və irəlidəki soyuq günlərdə qazla bağlı bir problem yaranmayacağını desələr də, istiliklə bağlı bir sıra problemlər qalmaqdadır.**

Belə ki, "Azəristlik"lə bağlı redaksiyamıza bir sıra şikayətlər daxil olub. Şikayətlərə görə qış rejiminə keçidin zamanı olsa da bir çox yerlərə hələ istilik buraxılmayıb. Qazanxanaların bəziləri işləmir. Maraqlıdır, bütün bunların səbəbi nədir? Axı kommunal xidmətlər qışa tam hazır olduqlarını və heç bir problem yaşanmayacağını deyirdilər.

Sualımıza cavab tapmaq üçün **"Azəristiliktəchizat" ASC-nin abonent və müştəri xidmətlərinin rəisi Rafiq Əliyevlə** əlaqə saxladıq. R.Əliyev texnoloji proseslərin müəyyən bir zaman apardığını dedi: "Bəzi obyektlərə, məktəblərə istilik verməmişik. Çünki məktəblər tətildə, bir sıra obyekt, mülkiyyət sahibləri isə yerində deyil. Gərək bu insanlar yerində olsun ki, istiliyi verən zaman nəsə problem - su axıntısı və ya hansısa başqa problem baş verərsə, xəbərimiz olsun. Bəzən deyirlər ki, ayın 15-i oldu, o dəqiqə istilik verilməlidir. Adicə bir misal çəkim. Çaydanı qazın üstünə qoyanda 15-20 dəqiqəyə isinir. Bizdə də böyük rayon qazanxanalarının dövriyyəsində beş min ton su olur. Qazanxanalardakı texniki parametrlər imkan vermir ki, birdən-birə hərarəti 70 dərəcəyə qoyasan. Gərək 5 dərəcə olmaqla artırasan və 5 min kub suyun hamısı qıza. Bundan sonra yenidən 5 dərəcə temperaturu artırmaq olar. Bundan başqa, su bizim böyük qazanxanalardan istilik məntəqələrinə, istilik məntəqələrindən isə binalara paylanır. Hər binada şəbəkəyə qoşulduqda şəbəkəyə əlavə su vurulur. O su da yenidən qızdırılmalıdır. Yəni texnoloji prosesin özü müəyyən zaman tələb edir. Ona görə də sakinlərin heç biri narahat olmasın. İstilik veriləcək və tam nəzarətdədir. Bundan başqa da "Azəriqaz"da bizimlə paralel bu işləri aparır. Qazın təzyiqini də 550 qazanxananın hamısında eyni vaxtda qaldırmaq mümkün deyil. Ona görə də bəzən qazanxanalar açılanda təzyiqdə nəsə fərq edəndə yenidən tənzimləmələr getməli olur. Yəni tam rejimdə işləmək üçün texnoloji proseslərə görə müəyyən vaxt lazımdır. Hansısa qazanxanada və ya magistral xəttə problem yoxdur. Qrafiklə açılmalar müəyyən zaman tələb edir".

**"Azəriqaz" İstehsalat Birliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi İbrahim Kərbalayev noyabrın 15-dən etibarən qış rejiminə keçdiklərini və hansısa problem yaşanmadığını bildirdi:** "Qazanxanalar tərəfimizdən təbii qazla təmin olunur. "Azəristiliktəchizat" tərəfindən müraciət daxil olduqda texniki, normativ təhlükəsizlik tələblərinə cavab verən istənilən qazanxanaya təbii qazın verilişi tərəfimizdən təmin olunur. Heç bir məhdudiyyət yoxdur. Ümumiyyətlə, ölkə ərazisində qazla bağlı heç bir məhdudiyyət yaşanmır. Əhalinin təbii qaza tələbatı təmin edilir. Qarşıdakı soyuq qış günləri ilə də bağlı tədbirlər alınıb. Artıq yay aylarından etibarən dəfələrlə bunu bəyan etmişik ki, istismara yararsız qaz xətləri yeniləri ilə əvəz olunub. Təmir olunmuş xətlər dayaqlar üzərinə qaldırılıb. Qaz təsərrüfatında hər hansısa bir problem yaşanmır. Qarşıdan gələcək soyuq qış günlərini nəzərə alaraq "Azəriqaz" İstehsalat Birliyi əhaliyə xəbərdarlıq edir ki, təbii qazdan istifadə zamanı xüsusilə diqqətli olsunlar və təhlükəsizlik qaydalarına ciddi riayət etsinlər".

❑ **Günel MANAFLI**



# "Gəncəbank" sədrinə qarşı daha bir iddia

## **Vəkil Ceyhun Yusifov:** "Natalya Kərimovaya anasından miras qalmış mülk də saxta sənədlərlə mənimsənilib"

**"Gəncəbank" rəhbəri Pərvanə Novruzovanın adı daha bir məhkəmə araşdırmasına qarışıb. Gəncə şəhər sakini Natalya Kərimova anası Yelena İosifovna Drobışevskayadan ona miras olaraq qalmış mənzilin bank rəhbəri tərəfindən saxtakarlıqla ələ keçirildiyini bildirib. Onun sözlərindən bəlli olur ki, anasına məxsus Gəncə şəhəri, Kəpəz rayonu, F. Əliyev küçəsi, I döngə, bina 11, mənzil 1 ünvanında yerləşən mənzil illər öncə ələ keçirilib: "Məhkəmə zamanı məlum olub ki, həmin mənzilin saxtakarlıqla ələ keçirilməsində Pərvanə Novruzova və onun qaynı Rauf adlı şəxs iştirak ediblər. Saxtakarlığa don geydirmək üçün belə görüntü yaratmağa çalışıblar ki, guya N.Kərimovanın anası Y.Drobışevskaya 86 yaşı olarkən yaşadığı Belarusyanın ucqar vilayətindən Moskva şəhərinə gəlib. Orada mübahisə obyekti olan Kəpəz rayonundakı mənzilini etibarnamə ilə ilkin olaraq Zaur adlı şəxsə, sonra Gülarə adlı bir qadının adına, sonra isə kürəkəni Samir adlı şəxsin adına keçirib". N.Kərimovanın vəkili Ceyhun Yusifov deyir ki, mənzilin etibarnamə üzrə addan ada keçirilməsi saxtakarlığın izini itirməyə hesablanmış addım olub. Lakin məhkəmə gedişatında cavabdeh Samir adlı şəxs hər şeyi etiraf edib, hadisənin əsas təşkilatçısının Pərvanə Novruzova olduğunu bildirib: "Natalya Kərimovanın anası hazırda həyatda yoxdur. Bu saxtakarlıqlar həyata keçirilən zaman Kərimovanın anası Y.Drobışevskayanın 86 yaşı olub. Belə bir yaşda olan ahıl qadının etibarnaməni imzalamadığını söyləmək üçün bir fakt yetər - saxtakarlıq edənlərin ağlına gəlməyib ki, 86 yaşlı qadın 800 km məsafəni qət edə bilməzdi. Üstəlik, onun yanında heç kim olmayıbsa, o, tək olubsa, bu qədər məsafəni qət etməsi sadəcə reallığa uyğun deyil".**

Natalya Kərimova Kəpəz Rayon Məhkəməsinə təqdim etdiyi iddia ərizəsində qeyd edir ki, anası uzun illər həmin mənzildə yaşayıb: "Anam illərlə həmin evdə yaşadıqdan sonra yaşlı olması səbəbi ilə doğulduğu Belarus Respublikasına köçüb. Bundan sonra bir neçə il mən orada yaşadım. Anam 15 mart 2011-ci ildə vəfat etdi. Anamın yeganə övladı olaraq onun vərəsəsi qismində çıxış edərək rəsmi qaydada həmin evi öz adıma rəsmiləşdirmək istəsəm də, ölkə xaricində olduğum üçün bu mümkün olmadı. Belə ki, "Gəncəbank" ASC-nin müdiri Pərvanə Novruzova tərəfindən əmlaklarım zorla ələ keçirilib, mənə təzyiq göstərilərək ölkədən çıxmağım üçün hədə-qorxu göstərilib. Bunun nəticəsində də mən 2002-ci ilin yanvarından ölkəni tərk etmək məcburiyyətində qalmışdım. Yəni rəsmi qaydada həmin mənzili tək vərəsə olaraq öz adıma rəsmiləşdirmək imkanından faktiki olaraq məhrum olunmuşdum. Pərvanə Novruzova tərəfindən başıma gətirilən bu və digər səbəblərdən anamdan miras qalan əmlak üzərində mülkiyyət hüququmu həyata keçirə bilməmişəm. Beləliklə də mənim Notariat kontoruna müraciət edərək mirası qəbul edə bilməməyimin səbəbi məhz məlum hadisələrə görə ölkəyə gəlmək imkanından məhrum edilməyim olub. Əslində anamın qanuni vərəsəsi olaraq mənzili qəbul etməyim dolayısı ilə baş verib".

**N.Kərimova deyir ki, 2015-ci ildə Azərbaycana qayıdıb və anasına məxsus mənzildə qonşuluqda yaşayan Gülarə İmamquliyevanın yaşadığını görüb. Onlardan qanunsuz olaraq zəbt etdikləri mənzildən çıxmalarını tələb edib:** "O, qətiyyətlə evdən çıxmayacaqlarını bildirərək məni oradan qovdu. Buna görə də məhkəməyə iddia verib anam Drobışevskaya Yelena İosifovnadan miras olaraq qalmış mənzilin həmin hissəsinə vərəsəlik qaydasında mülkiyyət hüququm tanınaraq tərəfimdən vərəsəliyin qəbul edilməsi faktının müəyyən edilməsinə dair qətnamə qəbul olunmasını xahiş etmişəm".

**N.Kərimovanın vəkili Əziz Qəmbərov isə deyir ki, iş üzrə yol verilmiş saxtakarlıqlar aşkardır:** "Məhkəmədə də sübut olundu ki, Yelena Dobrışevskayanın mənzilinin ələ keçirilməsi prosesi onun qızı Natalya Kərimovanın əmlakının ələ keçirilməsi prosesindən heç nə ilə fərqlənmir. Yəni hər iki şəxsə məxsus əmlaklar vahid mərkəzdən idarə olunmaqla ələ keçirilib. Bu işin təşkilatçısının "Gəncəbank" səlahiyyətlilərinin olduğu mübahisəsizdir. Məqsəd Natalya Kərimovanın bütün əmlakının ələ keçirilməsi olub".

❑ **E.HÜSEYNOV**

**P.S** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

YENİ MÜSAVAT

Son səhifə

N 255 (6283) 17 noyabr 2015



## Gələcək nəslin ömrü daha qısa olacaq

Gələcək nəslin ömrü əvvəlki nəsillərə nisbətən daha qısa olacaq. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) məlumat yayıb. Açıqlamada bildirilib ki, hazırda dünyada 382 milyon diabetli xəstə var. 20 il sonra bu rəqəm 55 faiz artaraq təqribən 600 milyona çatacaq. Xüsusilə də Avropada bu xəstəlik dörd qat daha sürətli artır. Eyni zamanda dünyada diabet, köklük, ürək-damar xəstəlikləri və xroniki xəstəliklərdə böyük artım müşahidə olunur. Şəkərli diabet ciddi təhlükə törədən, kəskin ağırlaşmalarla müşayiət olunan, müalicəsi çoxlu vəsait tələb edən xroniki xəstəlikdir. Şəkərli diabet digər xəstəlikləri kəskinləşdirə, ana və uşaq sağlamlığına mənfi təsir göstərə bilər. Bu xəstəliyin yüksək artımı eyni zamanda onun yaratdığı tibbi, sosial, iqtisadi, psixoloji və digər problemləri də qabardır. ÜST-in 2006-cı ildə qəbul etdiyi xüsusi bəyannamədə şəkərli diabet "ağır xroniki xəstəlik" kimi səciyyələndirilib. Diabet ölüm səbəbinə görə ürək, qan-damar çatışmazlığından və onkoloji xəstəliklərdən sonra üçüncü yeri tutur.

# MM paltarı 700 min dollara

Hollivudun məşhur sarışını Marlin Monronun "Kişilər sarışın sevər" adlı filmində geydiyi boz rəngli kostyum 23 noyabrda satışa çıxarılacaq. Nyu-Yorkda satışa çıxarılacaq olan paltarın təxminən 700 min dollara satılacağı güman edilir. Paltarı hazırlayan 20Th Centtury Fox paltarın 1971-ci ildə Debbi Reynolda satıldığını və 2000-ci ildə hazırkı sahibinə verildiyini açıqlayıb. M.Monro həmin paltarı Jane Russell ilə birlikdə çəkilən səhnədə geymişdi.



# İsti su içməyin faydaları

Su içməyin faydalarını bilməyən yoxdur. Su içməkdən xeyirli başqa nəsə var? İsti su isə qanda birbaşa sorulan bir neçə maddədən biridir. Bədən suyu digər komponentlərdən ayrılmaq məcburiyyətində qalmır. Çinlilər 40 yaşından sonra otaq istiliyindən soyuq olan suyun və ya qidanın xeyirli olmadığına inanırlar. Belə ki, qan damarları daha az elastik olur və diametri kiçilməsi səbəbindən yüksək qan təzyiqi yarana bilər. Həzm sistemi də daha az elastik olar, qəbizliyə gətirib çıxarar. Çinlilər soyuq su içməyin daxili orqanları daha çox büzdüyünə, problemləri daha da artırdığına inanırlar. Yağlı bir tavanı soyuq su ilə yumağa cəhd edin. Yağlar donar və yapışar. Amma həmin tavanı isti suda yusanız, yağı həll edər. İsti su da bədənimizi təmizləyir. İsti su daxili orqanları və döş qəfəsinin ətrafındakı əzələləri boşaldır, daha dərin nəfəs almağı təmin edir. İsti su mədə turşusunun təsirlərini də yaxşılaşdırır.





## Gündə 2 stəkan çay

Amerikalı alimlər yaşıl və qara çayın içərisində yüksək miqdarda olan "flavonoid" maddəsinin sümük üçün olduqca önəmli olduğunu açıqlayıblar. Araşdırma zamanı fərqli yaşlarda və fərqli işlərdə çalışan 188 min qadın üzərində təcrübə aparılıb. 10 il ərzində aparılan araşdırmalar göstərib ki, gündə 3 fincan çay içən qadınların sümük əriməsi riski 30% azalıb. Bir fincan yaşıl çayda 90-218 milliqram, bir fincan qara çayda isə 48-138 milliqram flavoid adlı maddə var. Həmin maddə həm də dərini zərərli maddələrdən qoruyur. Yaddaşı gücləndirmək üçün olduqca faydalıdır. Flavoidlə zəngin olan meyvə və tərəvəzlər isə limon, qırmızı meyvələr, pomidor, soğan, gül kələm və üzümdür.




**QOÇ** - Daxili sıxıntılarınızın artacağı mümkündür. Bu isə ətrafınızda olan insanların etibarsızlığından doğacaq. Bir tərəfdən səhhətinizdə, digər tərəfdənsə münasibətlərinizdə problemlər mümkündür.

**BUĞA** - Ümumi çalarlarına görə uğurlu gün hesab etmək olar. Qarşılıqlı münasibətlərdən tutmuş əməli fəaliyyətə qədər hər şey zövqünüzə uyğun olacaq. Uzaq səfərə çıxmağa, qonaq getməyə dəyər.

**ƏKİZLƏR** - Yeniliklər yolunuzu gözləyir. Rastlaşdığınız insanların əksəriyyəti qayğılarınızı sizə unutduracaq. Zamanı geri qaytarıb səhvinizi düzəltməkdənsə, real hədəflərə doğru irəliləyin.

**XƏRÇƏNG** - Ciddi işlərin həllinə həvəs göstərməyin. Əks təqdirdə, sizə mane olanlar tapılacaq. Yaxşı olar ki, əsas diqqətinizi istirahətə yönəldəsiniz. Ürəyiniz istəsə, qonaq getmək də olar.

**ŞİR** - İxtiyarınızda olan bu təqvimdə üzərinizə düşən başlıca vəzifə ədalətli qərarlar çıxarmaqdır. Baş verən situasiyaları düzgün qiymətləndirin. Yeni qərarlar səmərə verə bilər.

**QIZ** - Kənardan kömək olmasa, hər hansı nailiyyətə yetişə bilməyəcəksiniz. Ümumiyyətlə, təkbaşına heç bir iş görməməlisiniz. Bu gün yeganə uğurunuz ailə-sevgi münasibətlərində mümkündür.

**TƏRƏZİ** - Daxili sıxıntılarınızın xeyli azalacağı gözlənilir. İstənilən prosesdə ədalət prinsiplərindən bəhrələnin. İmkan verməyin ki, sizi aldatsınlar. Sevgidə qətiyyət göstərin.

**ƏQRƏB** - Bürcünüzün ən aktiv dövrü olduğundan göstərilən müddətdə uğurlu anlarınız çox olacaq. Odur ki, gün ərzində canfəşanlığınızı daha da artırmalısınız. Axşama yaxın sürprizlər mümkündür.

**OXATAN** - Fəaliyyət zəminində uğurlarınız mümkündür. Bunun üçün ilk növbədə işgüzar sövdələşmələrinizin sayını artırmalısınız. Amma səhhətinizi də qorumalı, mübahisədən qaçmalısınız.

**OĞLAQ** - Risk etməyə məhkumsunuz. Çünki mövcud ideyalarınızı kerçəkləşdirməkdən ötrü başqa yolunuz qalmayıb. İndi güzəştə getmək yalnız zərərinizə işləyə bilər. Axşam qonaq getmək maraqlı olacaq.

**SUTÖKƏN** - Bəzi qanqaraçılıqlar gözlənilsə də, səbr nümayiş etdirməlisiniz. Əmin olmadığınız proseslər barədə qəti fikir söyləməyin. Bir sözlə, riskə getmək, mübahisə etmək, səfərə çıxmaq olmaz.

**BALIQLAR** - Gərgin situasiyalarla rastlaşma ehtimalınız var. Ələlxüsus da kənar təsirlər əsəblərinizi qabarda bilər. Təmkinli olun. Səfərə çıxmaq istəyirsinizsə, bu planı saat 12-yə qədər reallaşdırın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qardaşının qurbanı oldu



Amerikada uşağını evdə qoyaraq əylənməyə gedən ana böyük bir faciəyə səbəb olub. Alabama əyalətində baş verən hadisə eşidənləri şoka salıb. Əylənməyə gedən qadın gecə evə qayıdıb və uşaqlara nəzarət etmədən yatıb. Səhər oyandığı zaman isə uşağının cansız bədəni ilə üzləşib. Polisin verdiyi məlumata görə, 8 yaşlı uşaq 1 yaşlı bacısı dayanmadan ağladığı üçün onu döyməyə başlayıb. Levis adlı qadın uşağının cansız bədəni ilə üzləşdiyi zaman şoka düşüb. Polislər qadını həbs ediblər. Lakin 15 min dollar cəza ödəyərək həbsdən azad olunub.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300